RƏSMİ DÖVLƏT QƏZETİ

AZƏRBAYCAN



№ 219 (10239) 27 noyabr 2026-cı il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

İlham Əliyevin təşəbbüsləri Cənubi Qafqazı sülh və əməkdaşlıq məkanına çevirib



Bu gün bölgədə müşahidə olunan müsbət dinamika təsadüfi deyil, Azərbaycanın həyata keçirdiyi ardıcıl və prinsipial siyasətin məntiqi nəticəsidir. Ölkəmizin ərazilərini işğaldan azad edərək suverenliyini tam təmin etməsi ilə regionda onilliklər boyu davam edən münaqişə ocağı söndürüldü və Cənubi Qafqazın gələcəyi üçün tamamilə yeni geosiyasi zəmin yarandı. Rəsmi Bakı əldə etdiyi tarixi uğurlardan sonra qarşıdurma yolunu deyil, məhz regional inteqrasiya və birgə inkişaf modelini irəli sürdü. İki ölkə arasında de-fakto sülh mühitinin formalaşması, sərhəddə sabitliyin təmin edilməsi və Azərbaycanın təşəbbüsü ilə irəlilədilən sülh prosesinin ötən ilin avqustunda ABŞ Prezidenti Donald Trampın iştirakı ilə Vaşinqton zirvəsinə yüksəlməsi Bakının diplomatik qələbəsinin bariz göstəricisi oldu. Ağ Evdə imzalanan Birgə Bəyannamə və paraflanan sülh sazişinin mətni regionda əməkdaşlıq dövrünün qapılarını rəsmən açdı.

Eyni zamanda Azərbaycan onilliklər boyu işğalçılıq siyasəti ucbatından regional izolyasiyaya məhkum olmuş Ermənistan üçün də iqtisadi "nəfəslik" rolunu oynayır. Azərbaycanın hələ ötən ilin oktyabrında işğal dövründən bəri mövcud olan yük tranziti məhdudiyyətlərini aradan qaldırması və yüklərin Azərbaycan ərazisindən Ermənistana daşınmasına icazə verməsi rəsmi Bakının xoş məramının əyani sübutudur.

Münasibətlərin normallaşması fonunda Azərbaycanla Ermənistan arasında iqtisadi və ticari əlaqələr qurulub, üçüncü ölkələrdən Ermənistana və Ermənistandan üçüncü ölkələrə yüklərin Azərbaycan ərazisindən tranzitlə daşınması üçün imkanlar yaradılıb. Son bir il ərzində Azərbaycan ərazisindən Ermənistana 100 min tondan artıq yük daşınıb.

4

Ölkəmizin iqtisadi potensialı Baltik sahillərində də maraq doğurur

Baltikyanı respublikaların Avropa İttifaqının üzvü olması, onların inkişaf etmiş nəqliyyat infrastrukturu, logistika sistemləri, rəqəmsal iqtisadiyyat və innovasiya sahəsində təcrübələri Azərbaycan üçün qarşılıqlı faydalı əməkdaşlıq perspektivləri formalaşdırır. Eləcə də Azərbaycanın enerji resursları, əlverişli coğrafi mövqeyi, nəqliyyat infrastrukturu və geniş tranzit imkanları bu ölkələrin Azərbaycanla iqtisadi əlaqələrə marağını artıran amillər sırasındadır. Qarşılıqlı iqtisadi maraqlar və mövcud potensial Baltikyanı respublikaların hər biri ilə ikitərəfli əməkdaşlığın konkret istiqamətlər üzrə inkişafını şərtləndirib.

Məsələn, Latviya və Estoniya ilə münasibətlərdə də iqtisadi əməkdaşlığın təşkilati bazası formalaşıb. Bu ölkələrlə hökumətlərarası komissiyaların fəaliyyəti, imzalanmış ikitərəfli sazişlər və biznes dairələri arasında əlaqələrin genişləndirilməsi iqtisadi münasibətlərin inkişafına xidmət edir. Azərbaycan-Latviya iqtisadi əməkdaşlığı ticarət, tikinti, sənaye, bankçılıq, sığorta, nəqliyyat və xidmət sahələrini əhatə edir. Azərbaycan-Estoniya münasibətlərində isə informasiya-kommunikasiya texnologiyaları, rəqəmsal mexanizmlər, logistika və ticarət əməkdaşlığı xüsusi əhəmiyyət daşıyır.

3



Azərbaycanla əlaqələrin dərinləşdirilməsinə maraq böyükdür

Bakının uğurlu diplomatiyası və praqmatik xarici siyasət kursu ölkəmizin beynəlxalq mövqeyini daha da gücləndirir, qlobal nüfuzunu artırır

Azərbaycanın Avropa məkanındakı mövqelərinin möhkəmlənməsinin mühüm göstəricilərindən biri də ölkəmizin Avropa İttifaqına üzv olan 10 dövlətlə ikitərəfli strateji tərəfdaşlıq sənədlərinə malik olmasıdır. Avropa İttifaqının üzvlərinin üçdəbirindən çoxu ilə rəsmiləşdirilmiş bu strateji tərəfdaşlıq mexanizmləri Azərbaycanın Brüssellə münasibətlərini dərinləşdirir, ölkəmizin qitə miqyasında etibarlı müttəfiq kimi qəbul edildiyini təsdiqləyir. Xüsusilə Şərqi Avropanın aparıcı dövlətləri - Çexiya, Polşa, Rumıniya və Macarıstanla formalaşmış siyasi, iqtisadi və humanitar əlaqələr ilbəil daha da şaxələnir. Bu ölkələrlə qurulan əməkdaşlıq Avropa İttifaqı daxilində Azərbaycanın mövqeyinin dəstəklənməsində müstəsna əhəmiyyət daşıyır.

Eyni zamanda Cənubi Avropada İtaliya ilə yüksəksəviyyəli tərəfdaşlıq münasibətləri uğurla inkişaf edir. Azərbaycan qazının əsas alıcısı olan İtaliya ilə enerji və sənaye sahələri ilə yanaşı, xammal, süni intellektin iqtisadiyyata tətbiqi, neft emalı və başqa sahələr üzrə yeni layihələr reallaşdırılır.

3

Azərbaycan və Gürcüstan strateji tərəfdaşlığı keyfiyyətcə yeni mərhələyə yüksəltmək əzmindədirlər



İki ölkə arasında qarşılıqlı fəaliyyət il boyu yüksək templə davam edib. Apreldə Prezident İlham Əliyev Gürcüstana dövlət səfəri edib, may ayında İrakli Kobaxidze Bakıda olub, iyunda isə Azərbaycan, Gürcüstan və Türkiyə xarici işlər nazirlərinin üçtərəfli danışıqları baş tutub. Oktyabrda iqtisadi əməkdaşlıq üzrə hökumətlərarası komissiyanın növbəti iclası keçirilib, noyabrda isə iqtisadiyyat, energetika və xarici siyasət qurumları rəhbərlərinin təmasları daha da sıxlaşıb. Müdafiə sahəsində də tərəfdaşlıq eyni fəallıqla inkişaf edib. Belə ki, iyunda Azərbaycanın müdafiə naziri Zakir Həsənov Tbilisiyə səfər edib, oktyabrda isə Şuşa şəhəri Azərbaycan, Gürcüstan və Türkiyə müdafiə nazirlərinin üçtərəfli görüşünə evsahibliyi edib. Belə zəngin gündəlik tərəflərin demək olar ki, bütün əsas istiqamətlər üzrə əməkdaşlığı dərinləşdirmək niyyətini ortaya qoyur.

4



7

Paşinyan Ermənistanın gələcək inkişafını sülh müqaviləsini imzalamaqda görür

Ədalət, haqq, beynəlxalq hüquq normaları Azərbaycanın tərəfində idi. Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev düzgün, düşünülmüş bir yol tutmuşdu, ordumuz güclənmişdi, inamla döyüşmüşdü, xalqımız birləşmişdi və qələbə əzmi ilə mübarizəyə atılmışdı. Belə halda Zəfər, qələbə qaçılmaz idi.

Dövlətimiz və xalqımız istəyinə çatdı. 10 noyabr 2020-ci il tarixində imzalanan üçtərəfli Bəyanata görə, Nikol Paşinyanı qınayanlar, ittiham edənlər, ünvanına satqın, təslimçi ifadələr səsləndirənlər konstitusiya layihəsini də eyni məntiqdən qiymətləndirirlər. Ancaq onlar bir həqiqəti başa düşüb dərk etmək istəmirlər. Anlamırlar ki, Paşinyan artıq ayılıb, şovinistlərin niyyətindən tam xəbərdardır, onların kələklərini bilir, tutduqları yolun erməni xalqını faciələrə apardığını yaxşı dərk edir. Buna görə də vəziyyətdən çıxış yolu axtarır, mümkün olan vasitələrə əl atır, Ermənistanın gələcək inkişafını Türkiyə və Azərbaycanla münasibətlərin yaxşılaşdırılmasında, sülh müqaviləsinin imzalanmasında görür. Bilir ki, bunun üçün ölkənin əsas qanununda istiqlaliyyət bəyannaməsinə istinad edilməməli, Türkiyəyə və Azərbaycana qarşı torpaq iddiaları aradan qaldırılmalıdır.

3

Baş nazir Əli Əsədov Slovakiyanın baş prokuroru ilə görüşüb



Azərbaycanın Baş naziri Əli Əsədov noyabrın 26-da Slovakiyanın baş prokuroru Maroş Jilinka ilə görüşüb.

Nazirlər Kabinetindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə Azərbaycan ilə Slovakiya arasında strateji tərəfdaşlığa əsaslanan münasibətlərin inkişafından məmnunluq ifadə edilib, qarşılıqlı faydalı əməkdaşlığın müxtəlif istiqamətlər üzrə daha da dərinləşdirilməsi üçün geniş potensialın mövcud olduğu vurğulanıb.

İki ölkənin prokurorluq orqanları arasında əlaqələrin dinamikası yüksək qiymətləndirilib, bu sahədə əməkdaşlığın daha da möhkəmləndirilməsi imkanları müzakirə olunub. Bu baxımdan Azərbaycan və Slovakiyanın baş prokurorluqları arasında bu gün imzalanan əməkdaşlıq proqramının əhəmiyyətinə toxunulub.

Görüşdə Baş prokuror Kamran Əliyev də iştirak edib.

İkinci Azərbaycan-Özbəkistan Parlamentlərarası Forumunun iştirakçıları AMEA-nın Rəyasət Heyətinin binasında və Milli Azərbaycan Ədəbiyyatı Muzeyində olublar

Noyabrın 26-da İkinci Azərbaycan-Özbəkistan Parlamentlərarası Forumunun iştirakçıları Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin binasında olublar.



Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin Sədri Sahibə Qafarova, Özbəkistan Ali Məclisi Senatının Sədri Tənzilə Narbayeva və forum iştirakçıları Rəyasət Heyətinin yerləşdiyi "İsmailiyyə" binası ilə tanış olublar.

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu il I Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb. Qeyd edək ki, qurultay 1926-cı il fevralın 26-dan martın 6-dək Azərbaycan Milli Elmlər Akademiyasının İstiqlaliyyət küçəsində yerləşən indiki binasında keçirilib. Bu mötəbər elmi toplantıda Özbəkistanın tanınmış elm xadimləri də iştirak ediblər. Forum iştirakçılarının bu gün Elmlər Akademiyasının inzibati binası ilə tanışlığı da məhz bu məqsədə xidmət edib.

Qonaqlara bildirilib ki, I Türkoloji Qurultay ortaq zəngin keçmişə və qədim irsə malik türk xalqlarının mədəni inteqrasiyasında mühüm mərhələlərdən birini təşkil edib. Beynəlxalq miqyaslı bu elmi forumda türk dünyasının dili, tarixi, etnoqrafiyası, ədəbiyyatı və mədəniyyətinin gələcəyi ilə bağlı vacib qərarlar qəbul edilib. Tanışlıq zamanı I Türkoloji Qurultaya və Azərbaycan-Özbəkistan elmi əlaqələrinə dair slaydlar nümayiş etdirilib.

AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun direktoru, müxbir üzv Ərtegin Salamzadə qonaqlara ölkə əhəmiyyətli bu abidənin tarixi və memarlıq xüsusiyyətləri barədə geniş məlumat verib. Qeyd edilib ki, bina 1908-1913-cü illərdə Azərbaycanın neft milyonçusu Musa Nağıyev tərəfindən vaxtsız vəfat edən oğlu İsmayılın xatirəsinə tikdirilib. O, "İsmailiyyə" binası kimi tanınan tikilinin inşasında Orta əsrlər Avropa memarlığında geniş yayılmış Qotika üslubu ilə yanaşı, Azərbaycanın milli ornamentlərindən də istifadə edildiyini söyləyib. Diqqətə çatdırıb ki, bina 1918-ci ilin mart hadisələri zamanı ermənilər tərəfindən yandırılıb və növbəti illərdə bərpa olunub.

Daha sonra qonaqlar AMEA-nın Rəyasət Heyətinin binasındakı böyük akt zalı ilə tanış olublar. Burada AMEA-nın prezidenti akademik İsa Həbibbəyli qonaqlara Azərbaycan-Özbəkistan elmi əlaqələri və AMEA-nın qardaş ölkənin Elmlər Akademiyası ilə yenilənməkdə davam edən əməkdaşlığı haqqında məlumat verib.

Qonaqlar həmçinin kitab sərgisi ilə də tanış olublar. Akademik İsa Həbibbəyli uzun illər sonra aşkarlanan və AMEA-da nəşr olunan özbəkəsilli dilçi alim Xalid Səid Xocayevin tərcümə etdiyi Mahmud Kaşğarinin 3 cildlik "Divanü lüğət-it türk" əsərini qonaqların diqqətinə çatdırıb.

Forum iştirakçıları Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi ilə də tanış olublar. Muzeyin direktoru, Milli Məclis Sədrinin müavini Rafael Hüseynov qonaqlara muzeyin tarixi və fəaliyyəti haqqında məlumat verib. Qeyd olunub ki, muzeyin əsası 1 noyabr 1939-cu ildə Nizami Gəncəvinin 800 illik yubileyi münasibətilə qoyulub və 14 may 1945-ci ildə açılıb.

Qonaqlar muzeydə qorunub saxlanılan qiymətli eksponatlar və nümayiş etdirilən qədim əlyazmalar, böyük ədiblərin əsərlərinə miniatürlər, xalq yaradıcılığı və tətbiqi sənət nümunələri, görkəmli şəxsiyyətlərlə bağlı nadir sənədlər, habelə müxtəlif əsrlərə aid digər maddi mədəniyyət abidələri ilə tanış olublar.

Qonaqlar Beynəlxalq Muğam Mərkəzində İkinci Azərbaycan - Özbəkistan Parlamentlərarası Forumu çərçivəsində təşkil olunan mədəni proqrama da baxıblar. Burada qonaqlara Azərbaycan və Özbəkistanın zəngin incəsənətindən nümunələr təqdim olunub.

"Azərbaycan"

Milli Məclisin Sədri Sahibə Qafarova Litvanın xarici işlər naziri ilə görüşüb



Milli Məclisin Sədri Sahibə Qafarova noyabrın 26-da ölkəmizdə səfərdə olan Litva Respublikasının xarici işlər naziri Kestutis Budris ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə ali və yüksəksəviyyəli qarşılıqlı səfərlərin, eləcə də fəal siyasi dialoqun ikitərəfli münasibətlərin inkişafında xüsusi əhəmiyyət kəsb etdiyi vurğulanıb.

Ölkələr arasında mövcud müqavilə-hüquq bazasının əməkdaşlıq üçün möhkəm zəmin yaratdığını bildirən Milli Məclisin Sədri ötən gün imzalanmış "Azərbaycan Respublikası və Litva Respublikası arasında Strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə"nin əhəmiyyətini vurğulayıb. O, bu mühüm sənədin iki ölkə arasında tərəfdaşlıq münasibətlərinin bütün sahələr üzrə daha da dərinləşdirilməsinə güclü təkan verəcəyini qeyd edib.

Söhbət zamanı ikitərəfli münasibətlərin dərinləşdirilməsində parlamentlərin mühüm roluna toxunulub. 2022-ci ildə Litvaya rəsmi səfərini və keçirdiyi görüşləri məmnunluqla xatırlayan Milli Məclisin Sədri Sahibə Qafarova yüksəksəviyyəli qarşılıqlı səfərlərin ikitərəfli əməkdaşlığın möhkəmləndirilməsinə mühüm töhfə verdiyini qeyd edib. Bununla yanaşı, parlamentlərarası əlaqələrin inkişafında işçi qruplarının fəaliyyətinin genişləndirilməsinin və qarşılıqlı səfərlərin təşviq edilməsinin vacibliyi diqqətə çatdırılıb. Qeyd olunub ki, parlamentlərarası dialoq tərəflərin bir-birinin mövqeyini və maraqlarını düzgün anlaması, qarşılıqlı məlumat mübadiləsinin təmin edilməsi, eləcə də informasiyanın obyektiv və qərəzsiz şəkildə çatdırılması baxımından böyük əhəmiyyət kəsb edir. Eyni zamanda beynəlxalq parlament təşkilatlarının da açıq və konstruktiv dialoqun təşviqində fəal iştirakının vacibliyi vurğulanıb.

Görüşdə, həmçinin energetika və bərpaolunan enerji, humanitar, müdafiə və təhlükəsizlik sahələrində əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparılıb, bu istiqamətlərdə əlaqələrin mövcud potensiala uyğun olaraq daha da genişləndirilməsi üçün əlverişli imkanların olduğu bildirilib.

Azərbaycana ilk rəsmi səfərindən məmnunluğunu bildirən Litva Respublikasının xarici işlər naziri Kestutis Budris Azərbaycan Prezidenti ilə keçirdiyi görüş barədə təəssüratlarını bölüşüb, səfər çərçivəsində aparılan müzakirələrin və imzalanmış "Strateji tərəfdaşlıq haqqında Birgə bəyannamə"nin əhəmiyyətini vurğulayıb. Litvanın 2027-ci il yanvarın 1-dən Avropa İttifaqı Şurasına sədrlik edəcəyini bildirən qonaq ölkəsinin Azərbaycan-Avropa İttifaqı münasibətlərinin inkişafına dəstəyini davam etdirəcəyini vurğulayıb. O, Cənubi Qafqazı strateji əməkdaşlıq regionu, Azərbaycanı isə Mərkəzi Asiyaya çıxış və Orta dəhlizin inkişafı baxımından mühüm tərəfdaş kimi səciyyələndirib.

Söhbət zamanı Azərbaycan-Ermənistan normallaşma və sülh prosesi haqqında da fikir mübadiləsi aparılıb. Spiker Sahibə Qafarova Azərbaycan torpaqlarının 30 illik işğalına son qoyulduğunu, ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin bərpa edildiyini deyib, azad olunmuş ərazilərdə həyata keçirilən bərpa-quruculuq işlərindən bəhs edib. Azərbaycanın regional sülhün və təhlükəsizliyin təmin olunmasına verdiyi töhfəni yüksək qiymətləndirən Kestutis Budris ölkəmizin Vaşinqton Sammitində əldə olunmuş razılaşmalara sadiqliyini və onların həyata keçirilməsi istiqamətində nümayiş etdirdiyi siyasi iradəni təqdir edib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

"Azərbaycan"

Slovakiyanın baş prokuroru Azərbaycanda səfərdədir

Slovakiya Respublikasının baş prokuroru Maroş Jilinkanın rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizdə səfərdədir.

Səfər çərçivəsində qonaqlar əvvəlcə Bakı şəhərində yerləşən Zəfər parkına gələrək Zəfər abidəsini, həmçinin Zəfər muzeyini ziyarət ediblər.

Zəfər muzeyində qonaqlara Azərbaycanın tarixi, Ermənistan-Azərbaycan münaqişəsi, 44 günlük Vətən müharibəsi və əldə olunmuş tarixi Qələbə, eləcə də ölkəmizin ərazi bütövlüyünün və dövlət suverenliyinin bərpası barədə məlumat verilib.

Daha sonra Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyev Slovakiya Respublikasının baş prokuroru Maroş Jilinkanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Qonaqları salamlayan baş prokuror Azərbaycan və Slovakiya arasında qarşılıqlı etimad və dəstəyə əsaslanan münasibətlərin son illərdə strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini, müxtəlif istiqamətlər üzrə dinamik inkişaf etdiyini vurğulayıb. Bu baxımdan 2024-cü ildə imzalanmış strateji tərəfdaşlığın yaradılması haqqında Birgə Bəyannamənin, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2025-ci ilin dekabrında Slovakiyaya, Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrininin isə 2026-cı ilin iyulunda Azərbaycana həyata keçirdikləri rəsmi səfərlərin ikitərəfli əlaqələrin daha da möhkəmləndirilməsində mühüm rol oynadığı qeyd edilib.



Dövlətlərarası münasibətlərin inkişafı fonunda iki ölkənin prokurorluq orqanları arasında əməkdaşlığın da ardıcıl olaraq genişləndiyini bildirən Kamran Əliyev Slovakiya Respublikasının baş prokuroru Maroş Jilinkanın 2025-ci ilin sentyabrında Azərbaycana səfəri çərçivəsində imzalanmış Anlaşma Memorandumunun institusional əlaqələrin inkişafında əhəmiyyətini diqqətə çatdırıb. Cari ilin 22-23 iyun tarixlərində Azərbaycan baş prokurorunun rəhbərlik etdiyi nümayəndə heyətinin Bratislavaya rəsmi səfərinin qarşılıqlı əlaqələrin daha da gücləndirilməsinə və praktiki əməkdaşlıq imkanlarının genişləndirilməsinə töhfə verdiyi vurğulanıb.

Slovakiya Respublikasının baş prokuroru Maroş Jilinka göstərilən yüksək qonaqpərvərliyə və səmimi qəbula görə təşəkkürünü bildirərək, Azərbaycanda olmaqdan məmnunluğunu ifadə edib. O, Azərbaycan Respublikasının Baş Prokurorluğunun beynəlxalq əməkdaşlığın inkişafına, hüquqi təcrübənin bölüşdürülməsinə və prokurorluq orqanları arasında peşəkar dialoqun təşviqinə verdiyi töhfələri yüksək qiymətləndirib. Həmçinin Azərbaycan prokurorluğunun fəaliyyət istiqamətləri, institusional inkişafı və müasir çağırışlara uyğun tətbiq etdiyi iş metodları ilə maraqlandığını bildirərək, səfər çərçivəsində keçirilən görüşlərin bu sahələrdə qarşılıqlı təcrübənin öyrənilməsi baxımından faydalı olacağını vurğulayıb.

Görüşdə cinayətkarlığın müxtəlif formalarına qarşı mübarizə, ekstradisiya və cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım sahəsində əməkdaşlığın intensivləşdirilməsi, hüquqi dialoqun inkişaf etdirilməsi, habelə prokurorluq orqanları arasında təcrübə və informasiya mübadiləsinin genişləndirilməsi məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Görüş çərçivəsində Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Slovakiya Respublikasının Baş Prokurorluğu arasında 2027-ci il üçün Əməkdaşlıq Proqramı imzalanıb.

Görüş zamanı Slovakiya Respublikasının baş prokuroru Maroş Jilinka iki ölkənin prokurorluq orqanları arasında əlaqələrin inkişafına və əməkdaşlığın gücləndirilməsinə verdiyi töhfələrə görə "Azərbaycan Prokurorluğunun 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalı ilə təltif olunub.

Nümayəndə heyətinin səfəri davam edir.

"Azərbaycan"

Türk Dövlətləri Həmkarlar İttifaqları Təşkilatının iclası keçirilib

Ankarada Türk Dövlətləri Həmkarlar İttifaqları Təşkilatının (TDHİT) iclası keçirilib. "2026-cı ildə TDHİT-yə üzv dövlətlərdə işçilərin sosial-iqtisadi vəziyyəti və bu istiqamətdə həmkarlar ittifaqlarının qarşısında duran vəzifələr" mövzusunda keçirilən iclasda Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının nümayəndə heyəti də iştirak edib.







Türkiyə İşçi Həmkarlar İttifaqları Konfederasiyasının sədri, TDHİT-nin prezidenti Ərgün Atalayın sədrlik etdiyi iclasda təşkilatın 2026-cı il üzrə fəaliyyətinin yekunları, üzv dövlətlərdə işçilərin sosial-iqtisadi vəziyyəti, təşkilati məsələlər, eləcə də 2027-ci il üçün iş planı müzakirə olunub.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, TDHİT-nin vitse-prezidenti Sahib Məmmədov çıxışında dövlət başçılarının siyasi iradəsi sayəsində ölkələrimiz arasında əlaqələrin son illərdə daha da genişləndiyini, müxtəlif sahələrdə əməkdaşlığın dinamik inkişaf etdiyini deyib. O, həmçinin Azərbaycanın sosial-iqtisadi inkişaf prioritetləri, məşğulluğun artırılması, sosial müdafiə mexanizmləri, eləcə də əmək hüquqlarının müdafiəsi və həmkarlar ittifaqlarının bu sahədə fəaliyyəti barədə məlumat verib.

Çıxışda rəqəmsallaşma və süni intellektin əmək münasibətlərinə təsiri, bu dəyişikliklərə uyğun yeni bacarıqların inkişaf etdirilməsi, beynəlxalq həmrəyliyin möhkəmləndirilməsi və təcrübə mübadiləsinin genişləndirilməsi diqqətə çatdırılıb.

Konfederasiya sədri Sahib Məmmədov TDHİT-yə üzv təşkilatların fəaliyyətinin əlaqələndirilməsinin, ortaq maraq doğuran məsələlər üzrə vahid yanaşmanın formalaşdırılmasının və beynəlxalq əməkdaşlıq çərçivəsində qarşılıqlı dəstəyin əhəmiyyətini vurğulayıb.

İclasda gündəlikdəki məsələlər müzakirə olunub və müvafiq qərarlar qəbul edilib.

Qeyd edək ki, Ankarada TDHİT-nin yeni inzibati binasının da açılışı olub. Açılış mərasimində çıxış edənlər binanın istifadəyə verilməsini türk dünyası həmkarlar ittifaqı hərəkatında birliyin və qarşılıqlı etimadın göstəricisi kimi dəyərləndiriblər. Yeni binada genişmiqyaslı tədbirlərin təşkili, işgüzar görüşlərin keçirilməsi və əməkdaşların səmərəli fəaliyyəti üçün müasir tələblərə uyğun şərait yaradılıb.

Sonra üzv təşkilatların rəhbərləri bina ilə tanış olublar.

Nərminə ƏSGƏROVA,
"Azərbaycan"

Azərbaycanın xarici siyasət kursu praqmatik və çoxvektorlu olması ilə seçilir. Son illər ərzində ölkəmiz təkcə regional sabitliyin və təhlükəsizliyin qarantı kimi deyil, həm də Avropa məkanında siyasi dialoqun, enerji təhlükəsizliyinin və nəqliyyat-logistika bağlantılarının həlledici aktoru kimi çıxış edir. Məqsədyönlü diplomatiya nəticəsində ölkəmizin Avropa İttifaqı və qitənin nüfuzlu dövlətləri ilə münasibətləri keyfiyyətcə yeni mərhələyə qədəm qoyub, qarşılıqlı etimada və bərabərhüquqlu tərəfdaşlığa əsaslanan möhkəm əməkdaşlıq formalaşıb. Bu uğurlu diplomatik xəttin əsas istiqamətlərindən biri də Azərbaycan ilə Baltikyanı regionun mühüm dövləti olan Litva arasında strateji tərəfdaşlıqdır. Noyabrın 25-də Azərbaycan Prezidenti İlham Əliyevin Litva Respublikasının xarici işlər naziri Kestutis Budrisi qəbul etməsi iki ölkə arasındakı siyasi dialoqun intensivliyini bir daha nümayiş etdirdi.



Azərbaycanla əlaqələrin dərinləşdirilməsinə maraq böyükdür

Bakının uğurlu diplomatiyası və praqmatik xarici siyasət kursu ölkəmizin beynəlxalq mövqeyini daha da gücləndirir, qlobal nüfuzunu artırır

Görüş zamanı dövlətimizin başçısı bir müddət əvvəl Dublində "Avropa Siyasi Birliyi"nin Zirvə Toplantısı çərçivəsində Litva Prezidenti Gitanas Nauseda ilə apardığı müzakirələri, eləcə də Litvanın Baş naziri Mindaugas Sinkeviçyusla baş tutan telefon danışığını məmnunluqla xatırladıb. Eyni zamanda ikitərəfli strateji tərəfdaşlığın enerji təhlükəsizliyi və digər sahələrdə genişləndirilməsi üçün böyük potensialın olduğunu vurğulayıb.

Öz növbəsində, Litvanın 2027-ci il yanvarın 1-dən Avropa İttifaqı Şurasına sədrlik edəcəyini diqqətə çatdıran nazir Kestutis Budris rəsmi Vilnüsün Azərbaycan-Avropa İttifaqı əlaqələrinin inkişafına, o cümlədən ölkəmizin NATO ilə əməkdaşlığının dərinləşdirilməsinə bundan sonra da qətiyyətli dəstək verəcəyini bəyan edib.

Litva ilə formalaşan bu səmərəli tərəfdaşlıq, əslində, Azərbaycanın Avropa İttifaqı ilə bütövlükdə dərinləşən çoxşaxəli münasibətlərinin tərkib hissəsidir. Bu il ərzində Avropa İttifaqı rəhbərliyinin Bakıya ardıcıl səfərləri və noyabrın 12-də Dublində Prezident İlham Əliyevin Aİ Şurasının prezidenti Antonio Koşta ilə keçirdiyi görüş dialoqun davamlılığından xəbər verir. Həmin görüşdə tərəflər əlaqələrin gələcək inkişaf perspektivlərini müzakirə edərək qarşılıqlı fəaliyyəti daha da gücləndirmək əzmini ifadə ediblər.

Son dövrlər Avropa ölkələrinin Azərbaycana marağının sistemli şəkildə artması təsadüfi deyil. Bu tendensiya təkcə enerji amili ilə məhdudlaşmır, ölkəmizin qlobal proseslərdə artan siyasi çəkisi, regional təşəbbüskarlığı və Prezident İlham Əliyevin beynəlxalq miqyasdakı yüksək nüfuzu Avropanın aparıcı siyasi mərkəzlərini Bakı ilə daha sıx işləməyə sövq edir. Davos, Münhen və digər nüfuzlu beynəlxalq platformalarda Azərbaycan Prezidenti ilə görüşlərin məhz qarşı tərəfin təşəbbüsü ilə təşkil olunması ölkəmizin söz sahibi olan tərəfdaş statusunu təsdiqləyir.

Azərbaycanın Avropa məkanındakı mövqelərinin möhkəmlənməsinin mühüm göstəricilərindən biri də ölkəmizin Avropa İttifaqına üzv olan 10 dövlətlə ikitərəfli strateji tərəfdaşlıq sənədlərinə malik olmasıdır. Avropa İttifaqının üzvlərinin üçdəbirindən çoxu ilə rəsmiləşdirilmiş bu strateji tərəfdaşlıq mexanizmləri Azərbaycanın Brüssellə münasibətlərini dərinləşdirir, ölkəmizin qitə miqyasında etibarlı müttəfiq kimi qəbul edildiyini təsdiqləyir. Xüsusilə Şərqi Avropanın aparıcı dövlətləri - Çexiya, Polşa, Rumıniya və Macarıstanla formalaşmış siyasi, iqtisadi və humanitar əlaqələr ilbəil daha da şaxələnir. Bu ölkələrlə qurulan əməkdaşlıq Avropa İttifaqı daxilində Azərbaycanın mövqeyinin dəstəklənməsində müstəsna əhəmiyyət daşıyır.

Eyni zamanda Cənubi Avropada İtaliya ilə yüksəksəviyyəli tərəfdaşlıq münasibətləri uğurla inkişaf edir. Azərbaycan qazının əsas alıcısı olan İtaliya ilə enerji və sənaye sahələri ilə yanaşı, xammal, süni intellektin iqtisadiyyata tətbiqi, neft emalı və başqa sahələr üzrə yeni layihələr reallaşdırılır.

Avropa qitəsi ilə strateji əlaqələrin coğrafiyası təkcə Aİ çərçivəsində məhdudlaşmır, qitənin digər qlobal güc mərkəzlərini əhatə edir. 2026-cı il noyabrın 12-də imzalanmış Birgə Bəyannamə Azərbaycan ilə Böyük Britaniya arasındakı münasibətləri rəsmən strateji tərəfdaşlıq səviyyəsinə yüksəltdi. Enerji, müdafiə, təhlükəsizlik, nəqliyyat, təhsil, elm və innovasiya kimi həyati sahələri əhatə edən bu tarixi sənəd ikitərəfli səmərəli əməkdaşlığın məntiqi nəticəsidir. Təsadüfi deyil ki, bu gün Böyük Britaniyanın Azərbaycan iqtisadiyyatına yatırdığı investisiyaların həcmi 39 milyard dolları ötüb. Yeni tərəfdaşlıq formatı bu rəqəmin daha da artmasına, birgə təşəbbüslərin genişlənməsinə güclü təkan verəcək.

Azərbaycan-Avropa tərəfdaşlığının təməlini enerji təhlükəsizliyi təşkil edir. 2022-ci ildə imzalanmış enerji sahəsində strateji tərəfdaşlığa dair Anlaşma Memorandumu əməkdaşlığı yeni mərhələyə daşıyaraq Azərbaycanı Avropanın enerji xəritəsində əvəzedilməz aktora çevirib. Hazırda Azərbaycan qazı Avropa İttifaqının 10 üzv dövlətinə ixrac olunur və bu coğrafiya mütəmadi olaraq genişlənir. Bununla kifayətlənməyən ölkəmiz Avropanın "yaşıl enerji" təhlükəsizliyində də liderlik missiyasını öz üzərinə götürüb. Xəzər dənizinin zəngin külək enerjisi potensialı, irimiqyaslı günəş enerjisi layihələri, Mərkəzi Asiya ilə "yaşıl enerji" dəhlizlərinin yaradılması və Qara dənizin dibi ilə elektrik kabelinin çəkilməsi təşəbbüsləri qitənin gələcək enerji balansında mühüm yer tutur.


Bu istiqamətdə atılan növbəti tarixi addım noyabrın 10-da COP31 çərçivəsində Azərbaycan, Bolqarıstan, Gürcüstan və Türkiyə hökumətləri arasında təmiz enerji sahəsində strateji tərəfdaşlıq haqqında sazişin imzalanması oldu. Bu mühüm sənəd Azərbaycanda bərpaolunan mənbələrdən istehsal edilən elektrik enerjisinin Gürcüstan və Türkiyə ərazisindən keçməklə Türkiyə və Avropa İttifaqı bazarlarına ötürülməsi üçün yeni bir marşrut açır.

Cənubi Qafqazda və Xəzər regionunda bağlantı layihələrinin əsas təşəbbüskarı kimi çıxış edən Azərbaycan Avrasiyanın nəqliyyat-logistika xəritəsini də yenidən formalaşdırır. "Trans-Xəzər" Beynəlxalq Nəqliyyat Marşrutu (Orta dəhliz), eləcə də "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizləri üzrə həyata keçirilən irimiqyaslı infrastruktur layihələri Azərbaycanın Avropa ilə Asiya arasında etibarlı və təhlükəsiz tranzit qovşağı kimi rolunu möhkəmləndirir. Müasir çağırışlar fonunda Avropa ölkələri üçün Azərbaycan üzərindən keçən marşrutlar ən optimal və dayanıqlı alternativ kimi çıxış edir. Bu da ölkəmizin qitənin iqtisadi təhlükəsizliyindəki həlledici mövqeyini daha da gücləndirir.

Əlbəttə, bütün bu sadalanan tarixi nailiyyətlərin, Avropa məkanında qazanılan yüksək etimadın və uğurlu diplomatiyanın mərkəzində lider faktoru dayanır. Prezident İlham Əliyevin uzaqgörən dövlətçilik strategiyası, milli maraqlara söykənən prinsipial xarici siyasət kursu Azərbaycanı regional çərçivələrdən çıxararaq qlobal miqyasda söz sahibi olan güclü dövlətə çevirib. Bu gün Azərbaycan Avropa üçün sülhün, sabitliyin, qarşılıqlı faydalı əməkdaşlığın və strateji tərəfdaşlığın aparıcı mərkəzidir.

İsmayıl QOCAYEV,
"Azərbaycan"

Paşinyan Ermənistanın gələcək inkişafını sülh müqaviləsini imzalamaqda görür



Ermənistan Ədliyyə Nazirliyinin yeni konstitusiya layihəsinin mətnini açıqlaması ölkədə iqtidar müxalifət qarşıdurmasına yeni vüsət vermişdir. Belə ki, millətçi revanşist qüvvələr daha da fəallaşmışlar. Onlar yeni konstitusiyanın Azərbaycanın tələbi ilə hazırlandığını iddia edir və xalqı layihənin əleyhinə getmək üçün mübarizəyə səsləyirlər.

Verilən bəyanatlar, çağırışlar, səsləndirilən şovinist fikirlər millətçi ermənilərin ənənəvi mübarizə üsuludur və onlar uzun illər erməni xalqını bu yolla aldadıb çıxılmaz bəlalara salmışlar. Reallığı qiymətləndirən, dünyada baş verən hadisələri dərk edən, millətçiləri, Türkiyə və Azərbaycana qarşı düşmənçilikdən əl çəkməyə səsləyən hər bir ağıllı ermənini şovinistlər satqın, xalqın düşməni adlandırmağa adət etmişlər və bu ənənə hazırda daha da sürətləndirilir.

Qeyd edək ki, millətçi ermənilər Nikol Paşinyanı fəaliyyətinin ilk illərində onu tələyə salmağı bacardılar və "Qarabağ Ermənistandır, nöqtə" deməyə məcbur etdilər. Azərbaycanın daha geniş ərazilərini işğal etməyə həvəsləndirdilər. Cıdır düzündə oynatdılar, yedirtdilər-içirtdilər, ruhlandırdılar. Erməni ordusu yenilməzdir, biz qalibik və qalib gələcəyik kəlmələri ilə aldatdılar, yolundan çıxartdılar.

Ancaq 44 günlük Vətən müharibəsində qaçıb gizləndilər, qeybə çəkildilər. Ara sakitləşən kimi isə "Paşinyan və komandasını Ermənistanı Azərbaycana satdı, təslim etdi" şüarlarını səsləndirməyə başladılar.

Əslində, Paşinyan yox, bu mənfur millətçilər, uzun illər Azərbaycana düşmən olan qüvvələr öz çirkin əməlləri, siyasətləri, vəhşilikləri ilə Ermənistanı təslim olmağa məcbur etmişdilər. Azərbaycan öz haqqını almışdı, torpağını işğaldan azad etmişdi, suverenliyinə tam qovuşmuşdu. Azərbaycan Ermənistanın bir qarış torpağını belə zəbt etməmişdi.

Ədalət, haqq, beynəlxalq hüquq normaları Azərbaycanın tərəfində idi. Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev düzgün, düşünülmüş bir yol tutmuşdu, ordumuz güclənmişdi, inamla döyüşmüşdü, xalqımız birləşmişdi və qələbə əzmi ilə mübarizəyə atılmışdı. Belə halda Zəfər, qələbə qaçılmaz idi.

Dövlətimiz və xalqımız istəyinə çatdı. 10 noyabr 2020-ci il tarixində imzalanan üçtərəfli Bəyanata görə, Nikol Paşinyanı qınayanlar, ittiham edənlər, ünvanına satqın, təslimçi ifadələr səsləndirənlər konstitusiya layihəsini də eyni məntiqdən qiymətləndirirlər.

Ancaq onlar bir həqiqəti başa düşüb dərk etmək istəmirlər. Anlamırlar ki, Paşinyan artıq ayılıb, şovinistlərin niyyətindən tam xəbərdardır, onların kələklərini bilir, tutduqları yolun erməni xalqını faciələrə apardığını yaxşı dərk edir. Buna görə də vəziyyətdən çıxış yolu axtarır, mümkün olan vasitələrə əl atır, Ermənistanın gələcək inkişafını Türkiyə və Azərbaycanla münasibətlərin yaxşılaşdırılmasında, sülh müqaviləsinin imzalanmasında görür. Bilir ki, bunun üçün ölkənin əsas qanununda istiqlaliyyət bəyannaməsinə istinad edilməməli, Türkiyəyə və Azərbaycana qarşı torpaq iddiaları aradan qaldırılmalıdır. Axı istiqlaliyyət bəyannaməsinə istinad danılmaz ərazi iddiası faktıdır. Bu fakt beynəlxalq hüququn norma və prinsiplərinə tamamilə ziddir və qəbuledilməzdir.

Paşinyan bunu anladığı üçün referendum keçirməyi, konstitusiyaya dəyişikliklər etməyi ən düzgün çıxış yolu hesab edir və bu real yanaşmadır. Ancaq o çətin durumdadır. Çünki yeni konstitusiya layihəsi referenduma ancaq parlamentin azı 70 deputatının razılığı ilə çıxarıla bilər. Paşinyanın partiyası isə parlamentdə 64 mandata malikdir. 6 səs çatışmazlığı baş naziri ciddi düşünməyə vadar edir və o, çıxış yolunu xalqın müdrikliyində, siyasi partiyaların, parlamentdə olan müxalifət qüvvələrinin ölkənin gələcək taleyi üçün bir araya gəlməkdə görür.

Baş nazir xalqın yeni konstitusiyanı qəbul etməyəcəyi təqdirdə istefaya gedəcəyini, əks halda yenidən baş nazir olmayacağını bəyan etməklə xalqı və müxalifəti ayılmağa, düzgün seçim etməyə istiqamətləndirir. O, yeni konstitusiyanın Bakının və Ankaranın diktəsi ilə hazırlanması fikrinin əleyhinə çıxır, Azərbaycanın və Türkiyənin təsiri altına düşmək kimi bəyanatları müxalifətin xalqı ələ almaq cəhdi kimi qiymətləndirir.

Paşinyan erməni şovinizminin, səsləndirilən bəyanatların xalqı uçuruma apardığını görür, sülh yaranmasa müharibənin qaçılmaz olduğunu anlayır və mübarizədə məğlub olacaqları qənaətindədir. Ona görə də məsuliyyəti erməni xalqının üzərinə qoyur. Konstitusiya qəbul edilmədiyi halda istefaya getməklə özünü doğru olaraq gələcək bəlalardan, faciələrdən sığortalayır. Digər tərəfdən bilir ki, konstitusiya qəbul edilərsə, regionda sülh yaranarsa, Azərbaycan və Türkiyə ilə münasibətlər qaydaya düşərsə, baş nazir kimliyindən asılı olmayaraq Ermənistanı müəyyən qaydada idarə edə bilər, xalqı təhlükələrdən qurtarmaq iqtidarına yiyələnər.

Ölkədə referendum keçirmək üçün əlavə 6 deputatı ələ almaq, mümkün olmadıqda növbədənkənar parlament seçkiləri keçirib parlamentdə 70-dən çox mandat qazanmaq, xaricdən və daxildən olan təsirləri neytrallaşdırmaq, ölkədə artmaqda olan siyasi-iqtisadi böhranın qarşısını almaq Ermənistanı çətin durum qarşısında qoymuşdur.

Nikol Paşinyan sülh ilə müharibə seçimi etmək istəyən bir xalqın əhatəsindədir. O, sülh tərəfdarı olan xalqın səsinə, seçiminə ümid bağlayır, müharibənin, qarşıdurmaların əleyhinədir. Ermənistanın gələcək inkişafını qonşu dövlətlərlə, xüsusilə Azərbaycan və Türkiyə ilə sağlam münasibətlərdə, qarşılıqlı əməkdaşlıqda görür. Müxalifət, şovinist, millətçi qüvvələr isə torpaqların geri qaytarılmasına, qarşıdurmalara, böyük Ermənistan yaratmaq xülyasına üstünlük verir, populist çıxışlarla xalqı çaşdırmağa, yeni müharibəyə cəlb etməyə səy göstərirlər. Bu psixi xəstəliyə tutulanlar, əlbəttə ki, xalqın gələcəyini, xoşbəxtliyini, Ermənistanın inkişafını, təhlükəsizliyini düşünmürlər, onları vəzifə, var-dövlət toplamaq daha çox maraqlandırır. Sarkisyanlar, Koçaryanlar kimi onlar da millətçi ermənilərə arxalanaraq Ermənistanı uçuruma sürükləyirlər.

Ermənistanda baş verən hadisələr dövlətin daxili işidir və biz bu proseslərə qoşulmaq fikrində deyilik, yekun qərarı erməni xalqı verməlidir. Ancaq hadisələrə münasibət bildirərək xatırlatmalıyıq ki, bu dövlətə sülh, əminamanlıq, təhlükəsizlik lazımdırsa, Nikol Paşinyanın tutduğu yola önəm verilməlidir, Ermənistanın müstəqil bir dövlət kimi yaşaması, inkişaf etməsi daimi sülhlə qonşu dövlətlərlə münasibətləri normallaşdırmaqla bağlıdır. Erməni xalqı bu şansı əldən verməməli, sağlam düşüncəyə, dövrün reallıqlarına arxalanmalı, taleyinə, övladlarının gələcəyinə biganə yanaşmamalıdır. Axı onlar şovinizmin, millətçiliyin bəlalarını çox görüb, ağrılarını çox yaşayıblar və bu gün də həmin ağrı-acıların təsiri altındadırlar. Düşünmək, bəlalardan, böhrandan qurtulmaq, düzgün yol seçmək vaxtıdır. Əks halda olanlarını da itirə bilərlər.

Tahir RZAYEV,
Milli Məclisin
Aqrar siyasət komitəsinin sədri

Ölkəmizin iqtisadi potensialı Baltik sahillərində də maraq doğurur

Azərbaycanın xarici iqtisadi siyasətində Avropa ölkələri ilə əməkdaşlığın genişləndirilməsi vacib istiqamətlərdəndir. Bu kontekstdə Baltikyanı respublikalar - Litva, Latviya və Estoniya ilə iqtisadi münasibətlərin inkişafı xüsusi diqqətə layiqdir. Sözügedən ölkələrlə əməkdaşlıq Azərbaycanın Avropa iqtisadi məkanına inteqrasiyasının dərinləşdirilməsi, xarici ticarət əlaqələrinin şaxələndirilməsi, investisiya imkanlarının genişləndirilməsi və nəqliyyat-logistika potensialının reallaşdırılması baxımından əhəmiyyətlidir.



Baltikyanı respublikaların Avropa İttifaqının üzvü olması, onların inkişaf etmiş nəqliyyat infrastrukturu, logistika sistemləri, rəqəmsal iqtisadiyyat və innovasiya sahəsində təcrübələri Azərbaycan üçün qarşılıqlı faydalı əməkdaşlıq perspektivləri formalaşdırır. Eləcə də Azərbaycanın enerji resursları, əlverişli coğrafi mövqeyi, nəqliyyat infrastrukturu və geniş tranzit imkanları bu ölkələrin Azərbaycanla iqtisadi əlaqələrə marağını artıran amillər sırasındadır. Qarşılıqlı iqtisadi maraqlar və mövcud potensial Baltikyanı respublikaların hər biri ilə ikitərəfli əməkdaşlığın konkret istiqamətlər üzrə inkişafını şərtləndirib.

Məsələn, Latviya və Estoniya ilə münasibətlərdə də iqtisadi əməkdaşlığın təşkilati bazası formalaşıb. Bu ölkələrlə hökumətlərarası komissiyaların fəaliyyəti, imzalanmış ikitərəfli sazişlər və biznes dairələri arasında əlaqələrin genişləndirilməsi iqtisadi münasibətlərin inkişafına xidmət edir. Azərbaycan-Latviya iqtisadi əməkdaşlığı ticarət, tikinti, sənaye, bankçılıq, sığorta, nəqliyyat və xidmət sahələrini əhatə edir. Azərbaycan-Estoniya münasibətlərində isə informasiya-kommunikasiya texnologiyaları, rəqəmsal mexanizmlər, logistika və ticarət əməkdaşlığı xüsusi əhəmiyyət daşıyır.

Litvanın isə bu münasibətlər sistemində xüsusi yer tutmasını şərtləndirən əsas amillərdən biri iki ölkə arasında iqtisadi əməkdaşlığın geniş hüquqi-normativ bazaya malik olmasıdır. Azərbaycan və Litva arasında iqtisadiyyat, sənaye və energetika sahələrində əməkdaşlıq haqqında sazişin imzalanması, investisiyaların təşviqi və qorunması, ikiqat vergitutmanın aradan qaldırılması, gömrük məsələləri və beynəlxalq nəqliyyat sahələrində hüquqi sənədlərin mövcudluğu iqtisadi münasibətlərin inkişafı üçün əlverişli institusional zəmin formalaşdırmışdır. 2008-ci ildə yaradılmış Azərbaycan-Litva Hökumətlərarası İqtisadi Əməkdaşlıq Komissiyasının da bu əlaqələrin koordinasiyasında böyük rolu var.

Litva ilə əməkdaşlığın ən önəmli istiqaməti nəqliyyat və logistika sahəsidir. Azərbaycanın "Şərq-Qərb" nəqliyyat dəhlizində artan rolu ilə Litvanın Baltik dənizi hövzəsində yerləşən nəqliyyat infrastrukturu arasında qarşılıqlı tamamlanma imkanları mövcuddur. Xüsusilə Litvanın Klaypeda dəniz limanı və dəmir yolu infrastrukturu Azərbaycan yüklərinin Avropa bazarlarına daşınması, tranzit marşrutlarının şaxələndirilməsi və multimodal daşımaların inkişafı baxımından əhəmiyyətlidir. 2022-ci ildə Azərbaycan və Litva arasında beynəlxalq avtomobil daşımaları haqqında sazişin imzalanması isə bu sahədə əməkdaşlığın hüquqi və praktiki əsaslarının möhkəmləndirilməsinə yönəlib.

Azərbaycan-Litva iqtisadi əməkdaşlığının inkişafında siyasi dialoqun və yüksəksəviyyəli qarşılıqlı təmasların yeri danılmazdır. Bu baxımdan, iki gün əvvəl Bakıda Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun Litvanın xarici işlər naziri Kestutis Budris ilə keçirdiyi görüş ikitərəfli münasibətlərin gündəliyində diqqətçəkən hadisələrdən biri kimi qiymətləndirilə bilər. Görüşdə iki ölkə arasında mövcud tərəfdaşlığın inkişaf perspektivləri, iqtisadi və ticarət əlaqələrinin genişləndirilməsi, eləcə də regional və beynəlxalq məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Tərəflər kənd təsərrüfatı və aqrar-sənaye, energetika, sənaye, informasiya-kommunikasiya texnologiyaları, kibertəhlükəsizlik və innovasiyalar sahələrində əməkdaşlığın dərinləşdirilməsi imkanlarını nəzərdən keçiriblər. Azərbaycanda fəaliyyət göstərən Litva şirkətlərinin iki ölkə arasında iqtisadi əlaqələrin genişlənməsindəki rolu qeyd edilib, eləcə də biznes-forumların keçirilməsinin işgüzar dairələr arasında birbaşa əlaqələrin qurulmasına və qarşılıqlı investisiya imkanlarının artırılmasına töhfə verəcəyi vurğulanıb.

Nəqliyyat və logistika məsələləri də müzakirələrin əsas istiqamətlərindən olub. Xüsusilə Orta dəhlizin Bakı vasitəsilə Xəzər regionunu Baltikyanı ölkələr və Avropa bazarları ilə birləşdirən mühüm nəqliyyat marşrutu kimi əhəmiyyəti diqqətə çatdırılıb. Litvanın liman, dəmir yolu infrastrukturu ilə əlaqələrin inkişaf perspektivləri ön plana çəkilib ki, bu da iki ölkənin nəqliyyat-logistika potensialının qarşılıqlı tamamlanması və Avrasiya məkanında iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır.

Səfər çərçivəsində Azərbaycan Respublikası Hökuməti ilə Litva Respublikası Hökuməti arasında Strateji Tərəfdaşlığa dair Birgə Bəyannamənin imzalanması ikitərəfli münasibətlərin inkişafında yeni mərhələnin əsasını qoyan vacib hadisə olub. Sənədin imzalanması iqtisadiyyat, ticarət, nəqliyyat, energetika və digər sahələrdə əməkdaşlığın daha geniş çərçivədə inkişaf etdirilməsi üçün siyasi və hüquqi zəminin möhkəmləndirilməsi baxımından əhəmiyyətlidir.

Litva şirkətlərinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində həyata keçirilən iqtisadi layihələrdə iştirak imkanlarından da söz açılıb. Xüsusilə Litvanın "Dominare" şirkətinin Araz Vadisi İqtisadi Zonasında mebel istehsalı müəssisəsinin yaradılması təşəbbüsü iki ölkə arasında iqtisadi əməkdaşlığın konkret investisiya layihələri müstəvisinə keçməsinin nümunəsi kimi diqqət çəkir. Bu fakt Litva biznes dairələrinin Azərbaycan iqtisadiyyatında iştirakının genişləndirilməsi, eləcə də işğaldan azad edilmiş ərazilərin sənaye və istehsal potensialının inkişafı baxımından əhəmiyyətlidir.

Göründüyü kimi, Azərbaycanın Baltikyanı respublikalarla iqtisadi əlaqələri ümumi regional əməkdaşlıq kontekstində qiymətləndirilsə də, Litva ilə münasibətlər hüquqi baza, nəqliyyat-logistika imkanları və iqtisadi əməkdaşlığın çoxşaxəliliyi baxımından araşdırma predmeti kimi maraqlı ola bilər. Bu səbəbdən Azərbaycan-Litva iqtisadi əlaqələrinin daha dərindən araşdırılması, ticarət dövriyyəsinin dinamikasının, ixrac-idxal strukturunun, investisiya münasibətlərinin və gələcək əməkdaşlıq perspektivlərinin təhlili iki ölkə arasında iqtisadi tərəfdaşlığın mövcud vəziyyətini və inkişaf istiqamətlərini müəyyənləşdirmək baxımından önəmlidir.

Züleyxa ƏLİYEVA ,
"Azərbaycan"

İlham Əliyevin təşəbbüsləri Cənubi Qafqazı sülh və əməkdaşlıq məkanına çevirib

İllərdir qapalı qalan dəmir yolları açılıb, yüklər sərhədlərdən maneəsiz keçir, sülh sazişinin mətni artıq hazırdır. Bir neçə il əvvəl yalnız xəyal kimi görünən bu mənzərə indi Cənubi Qafqazın gündəlik reallığıdır.



Bu günlərdə Ermənistanda Azərbaycan və Ermənistan vətəndaş cəmiyyətlərinin nümayəndələrinin iştirakı ilə "Sülh körpüsü" "dəyirmi masa"sının keçirilməsi, cəmi bir neçə gün əvvəl - noyabrın 23-də "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu"nun (TRIPP) praktiki icrasına start verilməsi bölgədə vəziyyətin, siyasi abhavanın necə köklü dəyişdiyini bütün aydınlığı ilə gözlər önünə sərir. Bütün bu proseslərin arxasında isə Azərbaycanın diktə etdiyi sülh və əməkdaşlıq modeli dayanır.

Ardıcıl və prinsipial siyasətin məntiqi nəticəsi

Bu gün bölgədə müşahidə olunan müsbət dinamika təsadüfi deyil, Azərbaycanın həyata keçirdiyi ardıcıl və prinsipial siyasətin məntiqi nəticəsidir. Ölkəmizin ərazilərini işğaldan azad edərək suverenliyini tam təmin etməsi ilə regionda onilliklər boyu davam edən münaqişə ocağı söndürüldü və Cənubi Qafqazın gələcəyi üçün tamamilə yeni geosiyasi zəmin yarandı. Rəsmi Bakı əldə etdiyi tarixi uğurlardan sonra qarşıdurma yolunu deyil, məhz regional inteqrasiya və birgə inkişaf modelini irəli sürdü. İki ölkə arasında de-fakto sülh mühitinin formalaşması, sərhəddə sabitliyin təmin edilməsi və Azərbaycanın təşəbbüsü ilə irəlilədilən sülh prosesinin ötən ilin avqustunda ABŞ Prezidenti Donald Trampın iştirakı ilə Vaşinqton zirvəsinə yüksəlməsi Bakının diplomatik qələbəsinin bariz göstəricisi oldu. Ağ Evdə imzalanan Birgə Bəyannamə və paraflanan sülh sazişinin mətni regionda əməkdaşlıq dövrünün qapılarını rəsmən açdı.

Eyni zamanda Azərbaycan onilliklər boyu işğalçılıq siyasəti ucbatından regional izolyasiyaya məhkum olmuş Ermənistan üçün də iqtisadi "nəfəslik" rolunu oynayır. Azərbaycanın hələ ötən ilin oktyabrında işğal dövründən bəri mövcud olan yük tranziti məhdudiyyətlərini aradan qaldırması və yüklərin Azərbaycan ərazisindən Ermənistana daşınmasına icazə verməsi rəsmi Bakının xoş məramının əyani sübutudur.

Münasibətlərin normallaşması fonunda Azərbaycanla Ermənistan arasında iqtisadi və ticari əlaqələr qurulub, üçüncü ölkələrdən Ermənistana və Ermənistandan üçüncü ölkələrə yüklərin Azərbaycan ərazisindən tranzitlə daşınması üçün imkanlar yaradılıb. Son bir il ərzində Azərbaycan ərazisindən Ermənistana 100 min tondan artıq yük daşınıb.

Bu əməkdaşlıq mühitinin ən vacib nümunələrindən biri isə "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu"dur. (TRIPP) Vaşinqton razılaşmalarının məntiqi davamı olaraq, cari ay layihənin praktiki icrasına rəsmi start verilib.

Layihənin rəsmi başlanğıcına həsr olunmuş videomüraciətində ABŞ Prezidenti Donald Tramp Prezident İlham Əliyevə Vaşinqtonla əməkdaşlığa, sülh gündəliyinin irəlilədilməsinə və layihənin reallaşmasına verdiyi töhfələrə görə təşəkkürünü ifadə edib. Öz növbəsində Prezident İlham Əliyev "X" hesabında ABŞ Prezidentinin təşəkkür mesajına cavab verib.

Mühüm strateji əhəmiyyətə malik məkan

Azərbaycan bu prosesdə üzərinə düşən öhdəliklərə sadiq qalaraq ərazisindəki dəmir və avtomobil yolu infrastrukturunu böyük ölçüdə tamamlamaqla TRIPP-ın əsas hissəsini artıq hazır vəziyyətə gətirib. Prezident İlham Əliyevin noyabrın 24-də "İpək yolunun yenidən dirçəlişi" mövzusuna həsr olunmuş Beynəlxalq Qafqaz Konqresinin iştirakçılarına müraciətində bölgədə Azərbaycanın səyləri ilə bərqərar olan sülhün geniş əməkdaşlıq mühitinə birbaşa yol açdığı belə vurğulanıb: "Cənubi Qafqazda dayanıqlı sülhün bərqərar edilməsi bu regionu beynəlxalq nəqliyyat dəhlizləri və iqtisadi əməkdaşlıq baxımından mühüm strateji əhəmiyyətə malik məkana çevirmişdir. Azərbaycanın təşəbbüsü ilə hazırda reallaşdırılan Zəngəzur dəhlizi Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında maneəsiz əlaqəni təmin etməklə yanaşı, Türkiyə ilə birbaşa quru nəqliyyat əlaqələrimizin genişlənməsinə, eyni zamanda, Orta dəhlizin imkanlarının artırılmasına, beynəlxalq ticarət və logistika əlaqələrinin inkişafına və daha geniş mənada tarixi İpək yolunun dirçəldilməsinə xidmət edəcəkdir".

Təsadüfi deyil ki, həm ABŞ, həm Avropa İttifaqı, həm də Çin bu layihənin qlobal iqtisadi dövriyyəyə sürətli inteqrasiyasında maraqlıdır.

Sülhün tam və dönməz xarakter alması üçün Bakının irəli sürdüyü prinsipial şərtlər də artıq öz nəticəsini verir. Vaşinqton Sammitində yekun sülh müqaviləsinin imzalanmasına mane olan yeganə amil Ermənistan konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarının qalması idi. İrəvanda açıqlanan yeni konstitusiya layihəsindən 1990-cı il Müstəqillik Bəyannaməsinə istinadın çıxarılması və xarici siyasətin əsas məqsədinin sülh olaraq göstərilməsi rəsmi Bakının da ifadə etdiyi kimi, müsbət irəliləyişdir. Ermənistanın baş naziri Nikol Paşinyanın bu referendumun nəticəsini öz siyasi karyerası ilə bağlaması prosesin İrəvan üçün də nə qədər həlledici olduğunu göstərir. Qarşıdan gələn referendumda erməni cəmiyyəti keçmişin ərazi iddiaları və təcrid siyasəti ilə qonşularla dinc yanaşı yaşamaq arasında yekun seçimini edəcək. Paralel olaraq, vurğuladığımız "Sülh körpüsü" təşəbbüsü çərçivəsində keçirilən müzakirələrin həm də iki cəmiyyət arasında qarşılıqlı etimadın yaradılması və inkişaf etdirilməsi tədbirlərini, Cənubi Qafqazda dayanıqlı iqtisadi əməkdaşlığı, ticarət və bağlantı marşrutlarının yaradılması imkanlarını, humanitar məsələləri, gənclərlə işi və təhsil sahəsini əhatə etməsi də qarşılıqlı etimadın bərpasına xidmət edir.

Azərbaycanın bölgədə yaratdığı sülh və sabitlik mühiti ölkəmizi qlobal miqyasda da əvəzolunmaz tərəfdaşa çevirib. Alternativ marşrutların riskli hala gəldiyi müasir dövrdə Azərbaycanın mərkəzində dayandığı Orta dəhliz Avrasiyanın ən təhlükəsiz ticarət xəttidir. Bakı bir-birinə rəqib olan qlobal güc mərkəzləri ilə bərabərhüquqlu tərəfdaşlıq qurmağı bacaran unikal diplomatiya yürüdür. Çinlə Hərtərəfli strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə, cari ilin fevralında ABŞ və Azərbaycan arasında Bakıda imzalanan Strateji Tərəfdaşlıq Xartiyası, bu ilin iyulunda Almaniya ilə imzalanmış "Azərbaycan Respublikası ilə Almaniya Federativ Respublikası arasında İkitərəfli Tərəfdaşlıq üçün Strateji Gündəlik haqqında Birgə Bəyannamə" kimi strateji sənədlər bunun bariz nümunəsidir. Mərkəzi Asiya ölkələri ilə sistemli regional siyasət, eləcə də Avropa İttifaqının üzv dövlətlərinə təbii qazın çatdırılması və "yaşıl enerji" layihələri ölkəmizi Avrasiyanın əsas əməkdaşlıq mərkəzinə çevirib.

Bütün bunlar göstərir ki, Azərbaycan regionda təkcə ədaləti bərpa etməyib, həm də bütün Cənubi Qafqazın gələcəyini dəyişən yeni sistem qurub. Bakının liderliyi ilə formalaşan bu əməkdaşlıq mühiti bölgə xalqlarına daimi sabitlik və davamlı inkişaf vəd edir.

Yasəmən MUSAYEVA,
"Azərbaycan"

Azərbaycan və Gürcüstan strateji tərəfdaşlığı keyfiyyətcə yeni mərhələyə yüksəltmək əzmindədirlər

Başa çatmaqda olan 2026-cı il Azərbaycan və Gürcüstan münasibətləri tarixində ən dinamik dövrlərdən biri kimi yadda qaldı. Yüksəksəviyyəli təmasların nəzərəçarpacaq dərəcədə intensivləşməsi iki ölkənin təkcə ənənəvi dostluq bağlarını möhkəmləndirmək deyil, həm də regionun dəyişən iqtisadi və geosiyasi arxitekturasında öz yerlərini birgə müəyyənləşdirmək istəyindən xəbər verir.

Noyabrın 24-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Gürcüstanın xarici işlər naziri Maka Boçorişvili ilə Bakıda keçirdiyi görüş bu tendensiyanın növbəti təsdiqi oldu. Dövlət və hökumət başçılarının, eləcə də aidiyyəti nazirliklərin rəhbərlərinin müntəzəm danışıqları göstərir ki, Azərbaycan və Gürcüstan strateji tərəfdaşlığı keyfiyyətcə yeni mərhələyə qaldırmaq əzmindədirlər. Buna həm ortaq iqtisadi maraqlar, həm də Cənubi Qafqazda baş verən ciddi geosiyasi transformasiyalar zəmin yaradır.

İki ölkə arasında qarşılıqlı fəaliyyət il boyu yüksək templə davam edib. Apreldə Prezident İlham Əliyev Gürcüstana dövlət səfəri edib, may ayında İrakli Kobaxidze Bakıda olub, iyunda isə Azərbaycan, Gürcüstan və Türkiyə xarici işlər nazirlərinin üçtərəfli danışıqları baş tutub. Oktyabrda iqtisadi əməkdaşlıq üzrə hökumətlərarası komissiyanın növbəti iclası keçirilib, noyabrda isə iqtisadiyyat, energetika və xarici siyasət qurumları rəhbərlərinin təmasları daha da sıxlaşıb. Müdafiə sahəsində də tərəfdaşlıq eyni fəallıqla inkişaf edib. Belə ki, iyunda Azərbaycanın müdafiə naziri Zakir Həsənov Tbilisiyə səfər edib, oktyabrda isə Şuşa şəhəri Azərbaycan, Gürcüstan və Türkiyə müdafiə nazirlərinin üçtərəfli görüşünə evsahibliyi edib. Belə zəngin gündəlik tərəflərin demək olar ki, bütün əsas istiqamətlər üzrə əməkdaşlığı dərinləşdirmək niyyətini ortaya qoyur.



Bu diplomatik fəallığın arxasında konkret iqtisadi və strateji hədəflər dayanır. Son otuz ildə Azərbaycan-Gürcüstan münasibətlərinin təməlini birgə enerji və nəqliyyat layihələri təşkil edib. Bu gün isə iki ölkə qarşısında Cənubi Qafqazın hüdudlarını aşaraq Mərkəzi Asiya və Xəzər hövzəsindən Türkiyəyə, Qara dəniz regionuna və Avropa bazarlarına qədər uzanan daha geniş iqtisadi əməkdaşlıq üfüqləri açılır.

2026-cı ilin mühüm hadisələrindən biri may ayında Bakıda enerji və nəqliyyat sahələrini əhatə edən sazişlər paketinin imzalanması oldu. Bakı və Tbilisi təbii qaz tədarükü üzrə əməkdaşlığı iyirmi il müddətinə uzatmaq, Azərbaycan enerji resurslarının Gürcüstan ərazisindən sonrakı tranzitini təmin etmək, eləcə də elektrik enerjisinin Gürcüstan bazarına çatdırılmasını və Türkiyəyə ixracını davam etdirmək barədə razılığa gəliblər. Bakı-Supsa neft kəmərinin və əlaqədar infrastrukturun istismar şərtlərinin razılaşdırılması isə xüsusi əhəmiyyət daşıyır, çünki bu addım Mərkəzi Asiya neftinin Gürcüstanın Qara dəniz sahilləri vasitəsilə tranzitinin bərpası üçün yeni perspektivlər açır.

Enerji sazişlərinin uzunmüddətli xarakteri beynəlxalq siyasi və iqtisadi konyunkturanın dəyişməsindən asılı olmayaraq, tərəflərin onilliklər boyu sabit əməkdaşlığı təmin etmək istəyini göstərir. Eyni zamanda, enerji tərəfdaşlığı tədricən ənənəvi neft-qaz sektorunun çərçivəsindən kənara çıxır. Noyabrda Azərbaycan, Gürcüstan, Türkiyə və Bolqarıstan "yaşıl enerji" sahəsində strateji tərəfdaşlığa dair hökumətlərarası saziş imzalayıblar. Paralel olaraq Rumıniya və Macarıstanın da iştirakı ilə Qara dənizin dibi ilə sualtı elektrik kabelinin çəkilməsi layihəsi üzərində işlər davam etdirilir. Beləliklə, Xəzər regionunu Avropa bazarı ilə birləşdirən iki perspektivli enerji marşrutu formalaşır və hər iki layihədə Azərbaycana və Gürcüstana açar rol ayrılır.

Nəqliyyat sektorunda da diqqətçəkən dəyişikliklər baş verir. Bakı-Tbilisi-Qars dəmir yolunun modernləşdirilməsinin başa çatması, onun infrastrukturunun birgə idarə edilməsinə keçid, "İpək yolu" adlı ortaq avtomobil buraxılış məntəqəsinin yaradılması və sərnişin dəmir yolu əlaqəsinin bərpası barədə razılaşmalar iki ölkənin nəqliyyat sistemlərinin getdikcə daha sıx inteqrasiya olunduğunu sübut edir.

Azərbaycan, Gürcüstan və Qazaxıstan 2029-cu ilə qədər Orta dəhlizin ötürücülük qabiliyyətini 30 milyon tona çatdırmağı hədəfləyir. Lakin buna nail olmaq üçün təkcə dəmir yollarının və limanların yenilənməsi kifayət deyil. Üç ölkə tranzit tariflərini uyğunlaşdırmalı, gömrük prosedurlarını sadələşdirməli, yükdaşımalarda rəqəmsal texnologiyalar tətbiq etməli və müasir logistika mərkəzləri qurmalıdır. Bu kontekstdə Azərbaycanın Ələt limanı ilə Gürcüstanda inşa edilən Anaklia dərin özüllü limanının qarşılıqlı əlaqəli inkişafı xüsusi maraq doğurur. Gələcəkdə hər iki liman Xəzər və Qara dənizləri arasında vahid nəqliyyat sisteminin əsas halqalarına çevrilərək Çin və Mərkəzi Asiyadan Avropaya və əks istiqamətə daşınan yüklərə xidmət göstərə bilər. Gürcüstanın iqtisadiyyat naziri Mariam Kvrivişvilinin noyabr ayında Azərbaycan rəhbərliyi ilə apardığı danışıqlarda təkcə mövcud nəqliyyat magistrallarının deyil, həm də Anaklia limanının və yeni Vaziani beynəlxalq hava limanının tikintisinin müzakirə edilməsi təsadüfi deyil. Bu layihələrin gündəmə gətirilməsi onu göstərir ki, Bakı və Tbilisi təkcə cari marşrutların inkişafı ilə deyil, ümumilikdə regionun gələcək nəqliyyat arxitekturası ilə maraqlanır.

Bakı ilə Tbilisinin yaxınlaşmasına Cənubi Qafqazda Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması ilə bağlı baş verən proseslər də təsir göstərir. Yeni nəqliyyat kommunikasiyalarının açılması regiona əlavə iqtisadi dividendlər vəd etsə də, mövcud və gələcək tranzit marşrutları arasında rəqabəti gücləndirir. Gürcüstan üçün regional yükdaşımalardakı mövqeyini qorumaq və möhkəmləndirmək vacibdirsə, Azərbaycan nəqliyyat marşrutlarını şaxələndirməkdə, Türkiyə, Qara dəniz hövzəsi və Avropa bazarlarına etibarlı çıxış əldə etməkdə maraqlıdır. İki ölkə rəhbərliyinin yeni regional reallıqlar fonunda uzunmüddətli maraqları uzlaşdırmaq məqsədilə intensivləşən danışıqlarını məhz bu prizmadan dəyərləndirmək lazımdır. Eyni zamanda Tbilisi Azərbaycan və Ermənistan arasında iqtisadi əlaqələrin bərpasına töhfə verməyə hazırdır. Azərbaycan neft məhsullarının Ermənistan bazarına çatdırılması üçün Gürcüstanın nəqliyyat infrastrukturundan istifadə edilməsi bunun bariz nümunəsidir.

İlham Əliyevin apreldə Tbilisidə səsləndirdiyi üçüncü ölkələrdə birgə investisiya layihələrinin həyata keçirilməsi imkanlarına dair bəyanatı da diqqətəlayiqdir. Bu təşəbbüs Azərbaycan və Gürcüstan qarşısında yeni imkanlar açır. Artıq söhbət təkcə ikitərəfli iqtisadi bağların genişlənməsindən deyil, xarici bazarlara birgə çıxışdan və beynəlxalq investisiya-infrastruktur layihələrində ortaq iştirakdan gedir.

İki ölkə arasında əməkdaşlığın nə qədər çoxşaxəli xarakter aldığını hökumətlərarası komissiyanın oktyabr ayında keçirilən iclasının gündəliyi də təsdiqləyir. İclasda investisiyalar, gömrük əməkdaşlığı, kənd təsərrüfatı, baytarlıq və fitosanitar nəzarət, Kür çayı hövzəsinin su ehtiyatlarından istifadə, eləcə də dövlət sərhədinin delimitasiyası və demarkasiyası üzrə işlərin davam etdirilməsi məsələləri müzakirə olunub.

Bununla yanaşı, Azərbaycan və Gürcüstan münasibətləri yalnız siyasət və iqtisadiyyatla məhdudlaşmır. Bu münasibətlərin kökündə iki xalqın çoxəsrlik tarixi bağları dayanır və bu irsin qorunmasında Gürcüstandakı azərbaycanlı icması ilə Azərbaycandakı gürcü icması müstəsna rol oynayır.

2026-cı ilin hadisələri sübut edir ki, Azərbaycan-Gürcüstan tərəfdaşlığı tədricən ayrı-ayrı iri beynəlxalq layihələrin hüdudlarını aşır. Burada söhbət hər hansı iqtisadi ittifaqın yaradılmasından deyil, iki ölkənin uzunmüddətli inkişaf strategiyalarının daha sıx uzlaşdırılmasından və dərin qarşılıqlı fəaliyyətindən gedir. Əvvəlki onilliklərdə Azərbaycan və Gürcüstan beynəlxalq enerji və nəqliyyat tranzitinin təminatçısı kimi mühüm rol oynayırdısa, bu gün onların Cənubi Qafqazı Mərkəzi Asiya, Çin, Türkiyə və Avropanın maraqlarının kəsişdiyi müstəqil iqtisadi mərkəzə çevirmək şansı var. Bakı və Tbilisinin gələcək planlarını nə dərəcədə uğurla koordinasiya edə bilməsindən təkcə iki ölkənin tərəqqisi deyil, bütövlükdə Cənubi Qafqazın dünya iqtisadiyyatındakı çəkisi də əhəmiyyətli dərəcədə asılı olacaq.

Kamran BAYRAMOV,
Milli Məclisin deputatı

Maka BOÇORİŞVİLİ: "Azərbaycan Gürcüstan üçün strateji tərəfdaşdır"

"Azərbaycan Gürcüstan üçün strateji tərəfdaşdır və iki ölkə uzun illərdir regionda mühüm layihələri birgə həyata keçirir".

AZƏRTAC xəbər verir ki, bunu **Gürcüstanın Baş nazirinin müavini və xarici işlər naziri Maka BOÇORİŞVİLİ** ölkənin Birinci Kanalda (1tv.ge) yayımlanan "Günün mövzusu" proqramında bildirib. Onun sözlərinə görə, müasir şəraitdə qlobal çağırışlar və mövcud geosiyasi kontekst fonunda Gürcüstan-Azərbaycan münasibətlərinə, iki ölkə arasındakı dinamikaya və əməkdaşlıq potensialına daha böyük əhəmiyyət verilir.

Boçorişvili qeyd edib ki, iki ölkənin mövcud geosiyasi kontekstdə daha yaxşı təmsil olunması üçün müntəzəm fikir mübadiləsinin aparılması və müxtəlif məsələlər üzərində daim işlənilməsi vacibdir. "Azərbaycanla strateji tərəfdaşlığımız məzmunca çox zəngindir. Bu tərəfdaşlıq intensiv siyasi dialoqu da əhatə edir. Bu il bir sıra yüksəksəviyyəli dövlət səfərləri həyata keçirilib. Azərbaycan Prezidenti Gürcüstana, Gürcüstanın Baş naziri isə Azərbaycana rəsmi səfər ediblər. Həmçinin Azərbaycanın Baş nazirinin Gürcüstana səfərləri olub və iki ölkənin müxtəlif sahələr üzrə nazirləri arasında qarşılıqlı səfərlər davam edir", - deyə Boçorişvili bildirib. Xarici işlər naziri vurğulayıb ki, Gürcüstan-Azərbaycan siyasi dialoqu konkret layihələri, regiondakı mövcud vəziyyəti və iki ölkə arasında əməkdaşlığın potensialını əhatə edir.



Onun sözlərinə görə, nəqliyyat dəhlizinin inkişafı, enerji resurslarının tranziti və digər sahələrdə əməkdaşlıq xüsusi əhəmiyyət daşıyır.

"Bütün bunlar Orta dəhlizin inkişafı üçün perspektiv yaradır və bu çox vacibdir", - deyə Boçorişvili əlavə edib.

"Cənubi Qafqazda sülh, sabitlik və iqtisadi rifah xalqlarımızın maraqlarına uyğundur"


"Hər bir dövlətin suveren hüquqları var. Cənubi Qafqaz respublikaları da öz gələcəklərini suveren hüquqları çərçivəsində müəyyən edirlər. Hər bir ölkənin konstitusiyasının necə olacağı da həmin dövlətin öz seçimindən və əhalisinin qərarından asılıdır".

Bu sözləri AZƏRTAC-a müsahibəsində **gürcü politoloq və siyasi şərhçi Giorgi XAİNDRAVA** deyib.

Onun sözlərinə görə, Ermənistanla Azərbaycan arasında uzunmüddətli sülhün bərqərar olması istiqamətində əlavə addımların atılması müsbət haldır və Gürcüstan bunu alqışlayır.

"Biz Cənubi Qafqazda uzunmüddətli sülhün və sabitliyin yaradılmasına, qorunub saxlanmasına xidmət edən müxtəlif formatlarda dəfələrlə iştirak etmişik. Müvafiq olaraq ədalətli şəkildə atılan istənilən addımı alqışlayırıq. Çünki hesab edirik ki, Cənubi Qafqazda sülh, sabitlik və iqtisadi rifah hər üç ölkənin və xalqlarımızın maraqlarına uyğundur.

Əgər ölkələrimiz arasında səmərəli əməkdaşlıq, normal mehriban qonşuluq münasibətləri, eləcə də regionda sabitlik və proqnozlaşdırıla bilən vəziyyət təmin olunarsa, Cənubi Qafqazın böyük qlobal iqtisadi layihələrə qoşulması mümkün olacaq. Bu halda regionumuz həm beynəlxalq siyasətdə, həm də



beynəlxalq ticarət-iqtisadi münasibətlərdə özünəməxsus yer tuta və mühüm beynəlxalq funksiyanı yerinə yetirə biləcək", - deyə G.Xaindrava vurğulayıb.

Azərbaycan beynəlxalq seçki forumunda təmsil olunub

Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahovun rəhbərlik etdiyi nümayəndə heyəti Antalyada səfərdə olub.

Mərkəzi Seçki Komissiyasından AZƏRTAC-a bildirilib ki, "Antalya Beynəlxalq Seçki Forumu"nda iştirak məqsədilə gerçəkləşdirilən səfər Türkiyənin Yüksək Seçim Kurulunun sədri Sərdar Muttanın dəvəti əsasında baş tutmuşdur.

Türkiyənin Yüksək Seçim Kurulunun təşəbbüsü ilə təşkil olunan beynəlxalq forum müasir dövrdə seçki proseslərinə təsir göstərən qlobal tendensiyalar, seçki idarəçiliyi, seçki proseslərində müasir çağırışlar, seçki qurumlarının media ilə münasibətləri və ictimaiyyətlə əlaqələr, seçkilərin hazırlanıb keçirilməsində şəffaflıq və ictimaiyyətlə səmərəli kommunikasiyanın təmin olunması kimi bir sıra aktual məsələləri əhatə etmişdir.

Mərkəzi Seçki Komissiyasının sədri M.Pənahov forumda çıxış edərək seçki prosesində aşkarlığın və şəffaflığın təmin olunmasının, media və ictimaiyyətlə səmərəli kommunikasiyanın və seçki subyektlərinin maarifləndirilməsinin əhəmiyyətindən bəhs edib. Azərbaycanın seçki praktikasına istinad edən MSK sədri ölkəmizin seçki qanunvericiliyinin yaratdığı imkanlar, müasir informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiqi, müşahidəçilərin və media nümayəndələrinin seçki prosesində sərbəst iştirakı, eləcə də ictimaiyyətin dəqiq və operativ məlumatlandırılması istiqamətində əldə olunan nailiyyətləri diqqətə çatdırıb. M.Pənahov rəqəmsal mühitdə dezinformasiyaya qarşı mübarizənin və beynəlxalq təcrübə mübadiləsinin aktuallığını xüsusi qeyd edib.





Səfər çərçivəsində MSK sədri foruma qatılan xarici ölkələrin seçki idarəetmə orqanlarının rəhbərləri və beynəlxalq təşkilatların nümayəndələri ilə də görüşüb. Görüşlərdə seçki sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi, qurumlararası əlaqələrin inkişaf perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

Ümumilikdə 23 ölkə və beynəlxalq qurumdan 75 nümayəndənin qatıldığı "Antalya Beynəlxalq Seçki Forumu" seçki idarəçiliyi sahəsində beynəlxalq dialoqun inkişafı, müxtəlif ölkələrin ali seçki qurumları arasında əlaqələrin möhkəmləndirilməsi, yeni əməkdaşlıq imkanları və qabaqcıl təcrübələrin qarşılıqlı mübadiləsi baxımından əhəmiyyətli beynəlxalq platformadır.

Azərbaycan-Avstraliya siyasi məsləhətləşmələri keçirilib

Noyabrın 23-26-da Azərbaycanın xarici işlər nazirinin müavini Elnur Məmmədov növbəti Azərbaycan-Avstraliya siyasi məsləhətləşmələrində iştirak etmək məqsədilə Avstraliyaya səfər edib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, genişləndirilmiş formatda keçirilən siyasi məsləhətləşmələrdə Azərbaycan tərəfdən "AzerGold" QSC-nin və İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin İnkişafı, İnvestisiyaların və İxracın Təşviqi Agentliyinin nümayəndələri də iştirak ediblər.

Siyasi məsləhətləşmələr çərçivəsində Elnur Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti Avstraliyanın Xarici İşlər və Ticarət Departamentinin (DFAT) nümayəndələri ilə görüşüb. Görüşdə Azərbaycan-Avstraliya münasibətlərinin cari vəziyyəti və inkişaf perspektivləri, siyasi dialoqun gücləndirilməsi, ikitərəfli əməkdaşlığın müxtəlif istiqamətləri, habelə qarşılıqlı maraq doğuran regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Səfər çərçivəsində Avstraliya Federal Parlamentinin Nümayəndələr Palatasının sədri Milton Dick, Avstraliya-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun həmsədrləri və üzvləri, eləcə də müxalifətin xarici işlər üzrə kölgə naziri Ted O'Brien və iqlim dəyişikliyi və energetika üzrə kölgə naziri Dan Tehan ilə görüşlər keçirilib.



Görüşlərdə parlamentlərarası əlaqələrin genişləndirilməsi, qarşılıqlı təmasların intensivləşdirilməsi və ikitərəfli əməkdaşlığın inkişafında parlament diplomatiyasının rolu müzakirə olunub.

Avstraliyanın İqlim Dəyişikliyi, Energetika, Ətraf Mühit və Su Resursları Departamentinin (DCCEEW) və Avstraliya Birliyinin Elmi və Sənaye Tədqiqatları Təşkilatının (CSIRO) nümayəndələri ilə keçirilən "dəyirmi masa"da bərpaolunan enerji, müasir texnologiyalar və mədən sənayesi sahələrində qarşılıqlı faydalı əməkdaşlıq imkanları müzakirə edilib.

Avstraliya Ticarət və İnvestisiya Komissiyasının (Austrade) nümayəndələri ilə keçirilən "dəyirmi masa"da isə Azərbaycan - Avstraliya ticarət-iqtisadi əlaqələrinin genişləndirilməsi, investisiya imkanları və iki ölkənin işgüzar dairələri arasında birbaşa əlaqələrin təşviqi məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

"Dəyirmi masa" görüşləri çərçivəsində Azərbaycan tərəfdən İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin İnkişafı, İnvestisiyaların və İxracın Təşviqi Agentliyi və "AzerGold" QSC-nin nümayəndələri müvafiq təqdimatlar ediblər.

Kanberra İnnovasiya Şəbəkəsinin (CBRIN) nümayəndələri ilə görüşdə Avstraliya Paytaxt Ərazisində innovasiya və sahibkarlıq ekosisteminin inkişafı üzrə təcrübə ilə tanışlıq olub. Universitetlər, tədqiqat institutları, dövlət qurumları və biznes sektoru arasında əməkdaşlığın təşviqi, innovativ ideyaların biznes layihələrinə və startaplara çevrilməsi, eləcə də yeni texnologiyaların kommersiyalaşdırılması mexanizmləri müzakirə edilib.

Yeni Cənubi Uels ştatına səfər çərçivəsində Elnur Məmmədov ştatın Qanunvericilik Şurasının prezidenti Bencamin Franklin ilə görüşüb. Görüşdə Azərbaycan ilə Yeni Cənubi Uels arasında əlaqələrin inkişafı, parlamentlərarası əməkdaşlığın genişləndirilməsi və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Ştatın İllavarra regionuna səfər zamanı nümayəndə heyəti Vollonqonq Universitetinin İnnovasiya Kampusuna da baş çəkib. Nümayəndə heyəti burada universitetin innovasiya ekosistemi, elmi-tədqiqat nəticələrinin kommersiyalaşdırılması, startapların inkişafına dəstək, habelə universitet, sənaye və dövlət qurumları arasında əməkdaşlıq mexanizmləri ilə tanış olub. Vollonqonq şəhərinin meri Tanya Braun, Vollonqonq Universitetinin vitse-kansleri və Prezidenti Max Lu AO, eləcə də İllavarra regionunun işgüzar dairələrinin nümayəndələri ilə görüşlərdə regionun innovasiya ekosisteminin inkişafı və bu sahədə əməkdaşlıq imkanları müzakirə olunub.

Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2026-cı ilin dekabr ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu cədvəli

S/n	Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumunun rəhbəri	Qəbulun keçirildiyi şəhər, rayon	Əhatə olunan şəhər və rayonlar	Qəbulun keçirildiyi gün
1.	**Daxili işlər naziri** Vilayət Eyvazov	**Masallı**	Masallı, Lənkəran, Astara, Lerik, Yardımlı	**02**
2.	**Baş prokuror** Kamran Əliyev	**Sumqayıt**	Sumqayıt, Qubadlı	**04**
3.	**Energetika naziri** Pərviz Şahbazov	**Oğuz**	Oğuz, Qəbələ, İsmayıllı, Şəki, Qax, Zaqatala, Balakən	**04**
4.	**Gənclər və idman naziri** Fərid Qayıbov	**Xızı**	Xızı, Siyəzən	**04**
5.	**Fövqəladə hallar naziri** Kəmaləddin Heydərov	**Ağsu**	Ağsu, İsmayıllı	**04**
6.	**Kənd təsərrüfatı naziri** Məcnun Məmmədov	**Ağdaş**	Ağdaş, Mingəçevir, Yevlax, Göyçay, Kürdəmir, Ucar, Zərdab	**04**
7.	**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** Bahar Muradova	**Naxçıvan**	Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur	**04**
8.	**Rəqəmsal inkişaf və nəqliyyat naziri** Rəşad Nəbiyev	**Naxçıvan**	Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur	**07**
9.	**"Azəriqaz" İstehsalat Birliyinin baş direktoru** Azər Məmmədov	**Şəmkir**	Şəmkir, Gədəbəy, Daşkəsən	**10**
10.	**Ədliyyə naziri** Fərid Əhmədov	**Naxçıvan**	Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur	**11**
11.	**Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri** Zaur Mikayılov	**Sabirabad**	Sabirabad, Saatlı, İmişli	**11**
12.	**Qida Təhlükəsizliyi Agentliyinin sədri** Qoşqar Təhməzli	**Ağdam**	Ağdam, Füzuli, Şuşa, Xocavənd, Xankəndi, Xocalı, Ağdərə	**11**
13.	**Elm və təhsil naziri** Emin Əmrullayev	**Cəbrayıl**	Cəbrayıl, Qubadlı, Zəngilan	**14**
14.	**Dövlət Gömrük Komitəsinin sədri** Şahin Bağırov	**Kəlbəcər**	Kəlbəcər, Laçın	**14**
15.	**Ekologiya və təbii sərvətlər naziri** Rəşad İsmayılov	**Cəbrayıl**	Cəbrayıl, Qubadlı, Zəngilan	**17**
16.	**Əmək və əhalinin sosial müdafiəsi naziri** Anar Əliyev	**Şirvan**	Şirvan, Hacıqabul	**18**
17.	**İqtisadiyyat naziri** Mikayıl Cabbarov	**Quba**	Quba, Xaçmaz, Qusar	**18**
18.	**Mədəniyyət naziri** Adil Kərimli	**Ucar**	Ucar, Zərdab, Göyçay, Ağdaş, Kürdəmir	**18**
19.	**Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri** Vüsal Nəsirli	**Şabran**	Şabran, Xaçmaz	**18**
20.	**"Azərişıq" ASC-nin sədri** Vüqar Əhmədov	**Astara**	Astara, Lənkəran, Lerik	**18**
21.	**"Azəristiliktəchizat" ASC-nin sədri** İlham Mirzəliyev	**Lənkəran**	Lənkəran, Astara, Lerik	**18**
22.	**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Ramin Məmmədov	**Xızı**	Xızı, Sumqayıt, Abşeron	**21**
23.	**Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri** Rövşən Rzayev	**Mingəçevir**	Mingəçevir, Ağdaş	**21**
24.	**Səhiyyə naziri** Anar Bayramov	**Qəbələ**	Qəbələ, İsmayıllı, Oğuz	**25**
25.	**Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi** Mürsəl İbrahimov	**Kürdəmir**	Kürdəmir, Mingəçevir, Göyçay, Yevlax, Ağdaş, Ucar, Zərdab	**25**

Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır.

Həştərxanda Azərbaycanın "Şimal-Cənub" dəhlizi üzrə prioritetləri təqdim edilib

Azərbaycanın Rusiyadakı səfiri Rəhman Mustafayev Həştərxan vilayətinə işgüzar səfəri çərçivəsində IV Həştərxan Beynəlxalq Forumunda "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi: Yeni üfüqlər və imkanlar" adlı forumda iştirak edib.

AZƏRTAC xəbər verir ki, diplomat "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi: Azərbaycanın uzunmüddətli strateji prioriteti" adlı əsas plenar iclasda təqdimatla çıxış edib.

Səfir Beynəlxalq Nəqliyyat Dəhlizinin qərb marşrutunun inkişaf etdirilməsində Azərbaycanın mərkəzi rolunu vurğulayıb. O, forum iştirakçılarını Bakının marşrutun həyata keçirilməsində əsas prioritetləri, ölkənin dəmir yolu və yol infrastrukturunun inkişafı, eləcə də bu sahədə Rusiya və İranla əməkdaşlığı barədə məlumatlandırıb.

O, Zəngəzur dəhlizinin (TRIPP) regional nəqliyyat əlaqələrinin genişləndirilməsi üçün strateji əhəmiyyətini xüsusi qeyd edib. Diplomat vurğulayıb ki, Azərbaycan tərəfinin gördüyü tədbirlər sayəsində "Şimal-Cənub" dəhlizi boyunca ölkəmizdən keçən tranzit yükdaşımalarında davamlı artım müşahidə olunur. Xüsusilə, 2025-ci ildə tranzit daşımaları 12 faiz artaraq 2,34 milyon tona və 2026-cı ilin ilk 10 ayında daşımalar 2025-ci ilin eyni dövrü ilə müqayisədə 2 faiz artımla 2,26 milyon tona çatıb.

Bununla yanaşı, dəmir yolu daşımaları 40 faizdən çox, avtomobillə daşımalar isə 18 faiz artıb.

R. Mustafayev qeyd edib ki, bizim ortaq hədəfimiz nəqliyyat infrastrukturunun əlaqələndirilmiş inkişafını təmin etmək, habelə beynəlxalq daşımaların davamlı artımı üçün etibarlı və səmərəli şərait yaratmaqdır. O həmçinin bildirib ki, infrastrukturun daha da modernləşdirilməsi, fiziki və inzibati maneələrin aradan qaldırılması və nəqliyyat proseslərinin rəqəmsallaşdırılması "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin qərb marşrutunun səmərəliliyini və rəqabət qabiliyyətini əhəmiyyətli dərəcədə artıracaq.



Forum çərçivəsində səfir R.Mustafayev Həştərxan vilayətinin qubernatoru İqor Babuşkin ilə görüş keçirib. Görüş əsnasında Azərbaycanla Həştərxan vilayəti arasında əməkdaşlığın inkişafı ilə bağlı cari və gələcək məsələlər müzakirə olunub.

Qubernator Bakı ilə Həştərxan arasında birbaşa uçuşların bərpası qərarına və bu regionla Azərbaycan arasında əməkdaşlıq layihələrinə verdiyi dəstəyə görə Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlığını bildirib.



Vətən deyəndə...



● Ölməzliyə qovuşanlar

Tarix öyrədən müəllim özü tarix yazdı



Tarix bəzən insanlara qəhrəmanları tanıdır, bəzən isə elə insanlar yetişdirir ki, onların həyat yolu gələcək nəsillər üçün qəhrəmanlıq dərsinə çevrilir. Zamanın yaddaşına həkk olunan belə ömürlər nə illərin axarında unudulur, nə də sahibinin yoxluğu ilə sona çatır. Vətənə, torpağa, xalqa sədaqətlə yaşanmış ömür ölümün belə sərhədlərini aşaraq əbədiyyət qazanır.

Təsəvvür edin, bir tarix müəllimi sinif otağında şagirdlərinə Azərbaycanın qəhrəmanlıq salnaməsindən danışır. Onlara Babəkin dönməzliyini, Cavanşirin cəsarətini, Koroğlunun mübarizə ruhunu, torpaqlarımızın müdafiəsi uğrunda canından keçən igidlərin fədakarlığını anladır. Hər dərsində bir həqiqəti şagirdlərinin yaddaşına həkk etməyə çalışır: Vətən bizə əcdadlarımızdan qalan müqəddəs əmanətdir. Bu əmanəti qoruyaraq gələcək nəsillərə bütöv və azad şəkildə ötürmək hər bir vətəndaşın mənəvi borcudur.

Günlərin birində tarix danışmağın yox, tarix yazmağın vaxtı gəlir. O zaman həmin müəllim şagirdlərinə öyrətdiyi həqiqətlərin qarşısında özü dayanmalı olur. Və o tərəddüd etmir. Çünki öyrətdiklərinə özü inanır, inandığı dəyərlər uğrunda yaşamağı, lazım gələrsə, canından keçməyi bacarır. Famil Əhmədzadənin ömür yolu məhz belə bir mənəvi bütövlüyün, müəllimlik andına və Vətənə sədaqətin parlaq nümunəsidir.

Famil Əhmədzadə 1975-ci il sentyabrın 23-də Bakıda dünyaya göz açıb. İbtidai təhsilinə 1982-ci ildə İsmayıllı şəhərində Milli Qəhrəman Eldar Məmmədov adına 3 nömrəli məktəb-liseydə başlayıb. Hələ məktəb illərindən yüksək intellekti, dərslərinə məsuliyyətli münasibəti və öyrənməyə həvəsi ilə seçilib. 1992-ci ildə orta məktəbi əlaçı məzun kimi başa vurub və elə həmin il Azərbaycanın ilk test üsulu ilə keçirilən qəbul imtahanlarında iştirak edərək Bakı Sosial İdarəetmə və Politologiya İnstitutuna (indiki Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası) qəbul olub. Tələbəlik illərində də özünü bilik və intizamı ilə doğruldub. 1997-ci ildə ali təhsilini fərqlənmə diplomu ilə başa vuraraq leytenant hərbi rütbəsi alıb. Elə həmin ildən məzunu olduğu İsmayıllı şəhər 3 nömrəli məktəb-liseydə tarix müəllimi kimi fəaliyyətə başlayıb. Beləliklə, həyatının mühüm bir missiyasını seçib - gənc nəslə tariximizi öyrətmək, milli yaddaşımızı yaşatmaq, Vətənə bağlı vətəndaşlar yetişdirmək.

Famil Əhmədzadə üçün müəllimlik, sadəcə, peşə deyildi, eyni zamanda məsuliyyət, nümunə olmaq və gələcək qarşısında mənəvi borc daşımaq idi. Onun dərslərində tarix yalnız keçmişdə baş vermiş hadisələrin xronologiyası deyildi, həm də milli kimlik, yaddaş, mənsubiyyət və gələcək qarşısında məsuliyyət demək idi. Yetirmələrinin yüksək nəticələrlə ali məktəblərə qəbul olunması onun zəhmətinin bəhrəsi idi.



1999-cu ilin əvvəlindən 2000-ci il noyabrın 9-dək Naxçıvanda zabit kimi hərbi xidmət keçən Famil hərbi intizamı, məsuliyyəti və nizamlı həyat tərzini xarakterinin ayrılmaz hissəsinə çevirmişdi. Hərbi xidmət dövründə gündəlik qeydlər aparması da onun həyata və yaşadığı hadisələrə münasibətini göstərirdi. Bu qeydlər əsasında gələcəkdə "Bir hərbçinin manifesti" adlı kitab yazmaq arzusu vardı. O, yaşadıqlarını, müşahidələrini, hərbi xidmətin çətinliklərini və yaddaşında iz qoyan hadisələri gələcək nəsillərə çatdırmaq istəyirdi.

F.Əhmədzadə 2000-ci il noyabrın 25-də sevib-seçdiyi Vüsalə xanımla ailə həyatı qurdu. Özünə xas xarakteri, dürüstlüyü, etibarı və qayğıkeşliyi ilə sevilən həyat yoldaşı, nümunəvi ailə başçısı oldu. Həyat yoldaşının xatirələrində Famil müəllim ilk növbədə sözü ilə əməli bir olan, ailəsinin güvənc yeri, qərarlarına hörmət edilən, qürurlu və tələbkar bir insan kimi yaşayır. Onun təmizliyə və səliqəyə münasibəti isə ayrıca bir xarakter göstəricisi idi. Bu, yalnız geyimindəki səliqə-sahmanla məhdudlaşmırdı. Famil müəllim təmizliyi insanın düşüncəsində, əqidəsində, münasibətində və mənəviyyatında görmək istəyirdi. Onun həyat fəlsəfəsini bir cümlə ilə ifadə etmək mümkündür - insanın həm zahiri, həm də daxili dünyası təmiz olmalıdır.Yeganə övladı Fəridə münasibəti də onun mənəvi dünyasının ən həssas tərəflərindən idi. Övladını sevgi, anlayış və etimadla böyüdür, səhvlərini başqalarının yanında deyil, onunla təklikdə söhbət edərək izah edirdi. Evdə ata, məktəbdə müəllim, həyatda isə dost olmağı bacarırdı. Həftənin iş günlərini məktəbə, istirahət günlərini ailəsinə ayırması ailə dəyərlərinə bağlılığının göstəricisi idi.

2020-ci il sentyabrın 27-də Ermənistanın növbəti hərbi təcavüzünə qarşı Azərbaycan Ordusunun Vətən müharibəsinə başlaması Famil müəllimin həyatında yeni səhifə açdı. O, müharibənin başlanacağı ehtimalından danışılan günlərdə Vətənin müdafiəsinə getməyə hazır olduğunu bildirərək adını könüllü döyüşmək istəyənlərin sırasına yazdırdı. 2020-ci il sentyabrın 27-də Ali Baş Komandanın xalqa müraciətini dinləyən Famil üçün artıq qərar verilmişdi. O, ehtiyatda olan zabit kimi hərbi xidmətə çağırılmasını gözləmədən Vətən qarşısında borcunu yerinə yetirməyə hazır idi. Həyat yoldaşının xatirələrinə görə, həmin günlərdə evin həyətində səssizcə dolaşması, ocağını, ailəsini seyr etməsi sonradan Vüsalə xanımın yaddaşında unudulmaz vida anları kimi qalıb.

Vüsalə xanım o günü belə xatırlayır: "Famil səfərbərlik elan ediləndə Hərbi Çağırış və Səfərbərlik üzrə Dövlət Xidmətinin İsmayıllı Rayon Şöbəsinə ilk gələnlərdən idi. Narahatlığımızı görüb dedi ki, bu çağırış tarixi çağırışdır, tarix müəllimi evdə oturacaqsa, onun tərbiyə etdiyi uşaqlar döyüşə kimin arxasınca gedəcəklər? Bunu mənə tarix də bağışlamaz, tarix dərsi keçdiyim oğullar da..." Bu sözlərdə bir müəllimin mənəvi məsuliyyəti, bir zabitin hərbi şərəfi, bir vətəndaşın Vətən sevgisi birləşirdi. O, illərlə şagirdlərinə öyrətdiyi vətənpərvərlik dərsini indi öz həyatı ilə təsdiqləməyə gedirdi.

Famil Əhmədzadə baş leytenant kimi döyüşlərə qatılaraq Füzuli, Talış və Suqovuşan istiqamətlərində gedən döyüşlərdə iştirak etdi. Döyüş yoldaşları ilə çiyin-çiyinə qəhrəmanlıq göstərdi. Onun üçün Vətən torpağının müdafiəsi, sadəcə, hərbi vəzifə deyil, illərlə təbliğ etdiyi milli dəyərlərin əməli ifadəsi idi.

F.Əhmədzadə 2020-ci il oktyabrın 13-dən 14-nə keçən gecə Talış-Suqovuşan istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə ucaldı. Nəşi noyabrın 3-də İsmayıllının Şəhidlər xiyabanında torpağa tapşırıldı. Beləliklə, bir zamanlar tarix dərslərində qəhrəmanlardan danışan müəllimin özü Azərbaycanın qəhrəmanlıq tarixinin səhifəsinə çevrildi.

Famil müəllimin yarımçıq qalan arzuları da vardı. O, müharibədən sağ-salamat qayıtmağı, oğlu Fəridi evləndirməyi, azad olunmuş torpaqlara şagirdləri ilə birlikdə səfərlər təşkil etməyi arzulayırdı. İstəyirdi ki, gələcək nəsillər müstəqil Azərbaycanın yeni tarixini həmin torpaqlarda, qəhrəmanlıq salnaməsinin yazıldığı məkanlarda öyrənsinlər. Ən böyük arzularından biri isə hərbi gündəlikləri əsasında "Bir hərbçinin manifesti" kitabını tamamlayıb oxucularına təqdim etmək idi. Təəssüf ki, həmin arzuların bir qismi yarımçıq qaldı. Lakin onun həyat yoldaşı Vüsalə xanım bu mənəvi missiyanı öz üzərinə götürərək Familin yarımçıq qalmış kitabını tamamlamaq yolunda addım atdı. Bu, həm bir həyat yoldaşının sevgisi, həm də şəhidin xatirəsinə sədaqətin ifadəsidir.

Prezident İlham Əliyevin sərəncamları ilə Famil Əhmədzadə ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Suqovuşanın azad olunmasına görə" medalları və III dərəcəli "Rəşadət" ordeni ilə təltif edilib. İsmayıllı şəhərində küçələrdən birinə onun adı verilib. Bu gün Famil Əhmədzadənin adı çəkiləndə göz önündə yalnız silahı ilə döyüşən zabit deyil, həm də şagirdlərə tarix öyrədən müəllim, ailəcanlı həyat yoldaşı, qayğıkeş ata, nizam-intizamlı insan və Vətən qarşısında borcunu ləyaqətlə yerinə yetirən vətəndaş canlanır.

Əziz Famil müəllim, sən şagirdlərinə tarixdə qəhrəman olmağın yollarını öyrədirdin. Həmin yolun ən çətin məqamında özün də o yolla getdin. Sinif otağında danışdığın qəhrəmanlıq dastanını döyüş meydanında öz ömrünlə tamamladın. Sənin şagirdlərin tarixi təkcə kitablardan deyil, həm də müəllimlərinin həyatından öyrənəcəklər. Axı, müəllimin ən böyük sərvəti yetişdirdiyi şagirdlər, ən böyük dərsi isə öz həyat nümunəsidir. Sən tarix öyrədən müəllim idin. Zaman səni tarixin özünə çevirdi! Ruhun şad, məkanın cənnət olsun, şəhid müəllim!

Elşən QƏNİYEV,
"Azərbaycan"

● Tarix yazan oğullar

Yaddaşlarda qəhrəman kimi qalıb

İkinci Qarabağ müharibəsi başlayanda Azərbaycan Ordusunun cəsur zabit və əsgərləri yurdumuzun müdafiəsinə atıldılar, düşmən hücumlarının qarşısını qətiyyətlə aldılar. Ağır itki verən işğalçılar geri çəkilmək məcburiyyətində qaldılar.



Həmin döyüşlərdə vuruşanların sıralarında müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kiçik çavuş Tural Ağcabəyov da var idi. O, 44 gün davam edən Vətən müharibəsində sonadək vuruşdu. Kəlbəcər, Ağdərə, Ağdam, Zəngilan, Laçın və başqa ərazilərin düşməndən azad olunmasında qəhrəmanlıq göstərdi. Savaşdan sonra doğmalarının yanına qələbə ilə döndü. Həmin günlər Tural Ağcabəyov həyatının ən qürurlu günlərini yaşayırdı. Və bilmirdi ki, hələ onu qarşıda erməni separatçılarına qarşı aparılacaq antiterror əməliyyatları gözləyir.

Yurdumuzun azadlığı uğrunda gedən döyüşlərdə şəhid olmuş Tural Təbriz oğlu Ağcabəyov 14 sentyabr 1987-ci ildə Xaçmazın Manafoba kəndində dünyaya göz açmışdı. Kəndlərində orta təhsilini başa vurduqdan bir müddət sonra əsgəri xidmətə çağırılmışdı. Xidmətdə olduğu müddətdə təlim-məşqlərdə döyüş hazırlığını artırmış, nümunəvi əsgərlərdən biri olmuşdu. Onun fəallığı komandanlığın diqqətindən yayınmadı. Xidmət dövründə təşəkkürnamə və fəxri fərmanlarla mükafatlandırıldı.

Tural Ağcabəyovun ürəyində müstəqilliyimizin ən etibarlı dayağı, müdafiəçisi olan Silahlı Qüvvələrimizə böyük sevgi vardı. Gələcək həyatını orduya bağlamaq istəyirdi. Çox keçmədi ki, bu sevgi Turalı yenidən xidmətə qaytardı. Əyninə hərbi forma geyinib xidmətə başladı. Yeddinci il idi ki, o, kiçik çavuş rütbəsində orduda xidmət edirdi. Üzərinə düşən tapşırıqları bacarıqla yerinə yetirirdi.

Vətən savaşı başlayanda Turalın xidmət etdiyi bölük Kəlbəcər istiqamətində yurdumuza keşik çəkirdi. Tural Ağcabəyovun Vətən müharibəsində şərəfli döyüş yolu da buradan başladı. Sonra o, Ağdərənin, Ağdamın, Kəlbəcərin, Laçının, Zəngilanın erməni qəsbkarlarından azad olunması uğrunda gedən döyüşlərdə iştirak etdi. Çiyin-çiyinə vuruşduğu zabit və əsgərlərlə birlikdə düşmənə ağır zərbələr endirdi.

Vətən müharibəsindən iki il sonra Tural 2022-ci il sentyabr ayının 12-si gecə və 13-ü səhər saatlarında ermənilərin Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər, Laçın və Zəngilan istiqamətlərində törətdikləri genişmiqyaslı təxribatların qarşısını alan hərbi qulluqçularımızın sırasında idi. "Qisas" əməliyyatı zamanı o, üzərinə düşən döyüş tapşırığını məharətlə yerinə yetirirdi. Amma uğurla başa çatan əməliyyatın son dəqiqələrində ağır yaralandı. Döyüş yoldaşları vaxt itirmədən onu hərbi hospitala çatdırdılar. Bir müddət burada müalicə olunub sağlamlığını tam bərpa etdikdən sonra Tural xidməti yerinə döndü.

Erməni işğalçıları məğlub olub geri çəkilsələr də, silahı yerə qoyub təslim olmur, Qarabağdan çıxmırdılar. Hələ də havadarlarının onlara kömək edəcəklərinə ümid edirdilər. 1980-ci illərin sonlarından burada kök salmış erməni separatçıları və Ermənistan silahlı qüvvələrinin tör-töküntüləri xalqımıza qarşı insan tələfatı ilə nəticələnən təxribatlar törədirdilər. Bu təxribatların qarşısının birdəfəlik alınması üçün 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusu Qarabağda lokal xarakterli antiterror əməliyyatı keçirdi. 23 saat 43 dəqiqə davam edən əməliyyat nəticəsində düşmən məğlub olaraq ağ bayraq qaldırdı.

Təəssüflər olsun ki, Vətən müharibəsindən, "Qisas" əməliyyatından salamat çıxmış kiçik çavuş Tural bu əməliyyat zamanı Ağdərə ərazisində ağır yaralandı. Hospitala çatdırılsa da, yaraları ağır olduğuna görə həkimlər onun həyatını xilas edə bilmədilər. Tural Ağcabəyov müdafiəsinə qalxdığı torpaq uğrunda şəhid oldu. Dünyadan cəsur bir əsgər kimi köçdü, yaddaşlarda qəhrəman kimi qaldı.

Şəhidin baxışlarından kədər süzülən anası Səmayə Ağcabəyova deyir ki, Tural hər dəfə evə zəng vuranda döyüşlərdə qazanılan uğurlardan həvəslə, sevinə-sevinə söz açırdı, ermənilər torpaqlarımızdan necə cəsarətlə qovduqlarından danışardı: "Vətən müharibəsindən kəndə qayıdanda yaxınları, doğmaları onu bayraqlarla, təntənə ilə, qalib əsgər kimi qarşıladılar. İkinci Qarabağ müharibəsindən sonra da Tural silahını yerə qoymadı, döyüş yolunu davam etdirdi. "Qisas" əməliyyatında qəhrəmanlıq göstərdi, yaralansa da, mövqeyini tərk etmədi, sona qədər cəsarətlə vuruşdu, döyüş yoldaşlarını tək qoymadı. Turalın antiterror əməliyyatında iştirak etdiyini bilirdik. Bir neçə dəfə zəng vurub salamat olduğunu dedi. Sonra ondan zəng gəlmədi, çox nigaran qaldıq. Çox keçmədi ki, qapımızı oğlumun şəhid olması xəbəri döydü. Qürur duyuram ki, erməni işğalçıları üzərində qazanılan qələbədə oğlumun da payı var. Bu, mənim üçün böyük fəxr və təsəllidir".

Torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə göstərdiyi qəhrəmanlığa görə Tural Təbriz oğlu Ağcabəyov ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Ağdamın azad olunmasına görə" medalı ilə təltif edilmişdir.

Tural ailəli idi. Özündən sonra üç övladı - Xəlil, Anar və Leyla yadigar qalıblar. Böyük oğlu Xəlil atasının xidmət yolunu davam etdirmək üçün C.Naxçıvanski adına Hərbi Liseyə qəbul olub. Ataları ilə həmişə fəxr edən övladları onun yarımçıq qalmış bütün arzularını həyata keçirəcəklərinə söz veriblər. Söz veriblər ki, Vətənimiz, dövlətimiz və xalqımız üçün gərəkli övladlar olacaqlar.

Vahid MƏHƏRRƏMOV,
"Azərbaycan"

● Yurdu yaşadan qəhrəmanlar

Azad - sevginin, Vətənin və sədaqətin adı

Gerçək həyat hekayəsindən bəhs edən bu oçerk şəhid Azad Abbasovun əziz xatirəsinə ithaf olunur

Tarixin yaddaşı çox zaman silahların səsi ilə yox, qəlbin səssiz çağırışı ilə yazılır. Bəzən bir insanın həyat yolu bir xalqın əzmini, bir millətin sevgisini və ağrısını özündə daşıyır. Həqiqi qəhrəmanlar haqqında yazmaq, sadəcə, bioqrafiyanı təqdim etmək deyil, həm də ruhun sözlərdə yaşayan izini qorumaq cəhdidir. Əgər sevgi və Vətən hissi bir qəlbdə birləşibsə, o ömür artıq sıradan sayılmır, bir məbədin daşına çevrilmiş hekayəyə bənzəyir. Uilyam Şekspir demişdi: "Amal sevgi uğrunda ölmək deyil, uğrunda öləcək sevgini tapmaqdır".



Azad Abbasov bu fikrin canlı təcəssümüdür. O, həm yaşamağa, həm də ölməyə dəyəcək sevgini tapmışdı. Hər şey bir ömrün içində yaşanan anların xatirəsi ilə başlayır. Bu gerçək hekayə vasitəsilə sevginin, sədaqətin və Vətənə bağlılığın nə demək olduğunu bir daha xatırlamaq yerinə düşür.

Hamısı adi bir gündə, sadə bir qarşılaşma ilə başladı. Günəşli bir gündə Beyləqan şəhərində üzüm bağlarının arasında iki gəncin - Azad və Nuriyyənin yolları kəsişdi. Nuriyyə üzüm yığımı üçün gəlmişdi, Azad isə Mil üzümçülük sovxozunda zəhmətkeş bir gənc kimi çalışırdı. Təbiət onların sevgisinin şahidi olmuşdu. Ağaclar, torpaq, hava - hamısı pıçıldayırdı: "Bu sevgi fərqlidir…"

Azad adı kimi ruhu da azad olan bir gənc idi. Gözlərində dərin və sakit bir duyğu, səsində isə inam vardı. Nuriyyə isə bahar kimi çiçəklənən, gözlərində günəş parlayan bir qız idi. Onların sevgisi sadə görünə bilərdi, amma bu sevgi taleyin yazısıydı. Qələmi qismət, mürəkkəbi qəlb olan bir yazı…

Azad sovet ordusunda xidmət etmiş, sonra doğma Vətəninə qayıtmışdı. Bu o zaman idi ki, ağır günlərini yaşayan Vətən oğullarını səsləyirdi. Azadın qəlbində bir tərəfdə Nuriyyəyə olan sevgisi, digər tərəfdə isə torpağa olan borcu dayanırdı. Seçim etmədi. Çünki bilirdi ki, Vətən olmayacaqsa, sevgi də yaşaya bilməz. O, könüllü olaraq milli ordu sıralarına qoşuldu. Beyləqan özünümüdafiə batalyonunun tərkibində Əmiralılar, Kuropatkino, Muğanlı kəndlərində döyüş yolu keçdi.

Həm də sevgisini ürəyində daşıdı. Nuriyyə də onu gözləyirdi. Hər səhəri dua ilə açırdı. Azadın sağ-salamat qayıdacağı ümidi ilə. Ta ki, mart ayına qədər… Xəbər gəldi, Azad şəhid olub…

Bəzən bir xəbər bir ömürlük susqunluğa səbəb olar. Nuriyyənin həyatı həmin gündən donub qaldı. Sevdiyini, arzularını, gələcəyini - nəyi vardısa, hamısını itirmişdi. Amma bu acını susaraq yaşadı. Ağlamadı, dünyaya kin bəsləmədi. Sadəcə səssizcə yaşadı, əgər buna yaşamaq demək olardısa… Bu sükutda ömürlük sədaqət vardı.

O, heç vaxt ailə həyatı qurmadı. Heç bir ocağa gəlin olmadı. Bu, qadın sədaqətinin, sevgi fədakarlığının və ruhən yaşamağın gerçək hekayəsi oldu.

Hazırda Nuriyyə 50 yaşındadır. Cəlilabadın Çinar kəndində yaşayır. Onun həyatı bir məzarın başında susaraq danışmaq, bir tarixdə ruhən qovuşmaq və bir sevgini illərlə yaşatmaqdır.

Azad bir tarixdir - bir qızın sevdiyi, bir torpağın yetirdiyi, bir millətin yaşatdığı qəhrəman. Bəzən insanlar ölər, adları unudular. Amma bəzi adlar - sevgi, sədaqət və şəhidliklə yazılan adlar əbədiyyətə çevrilər.

Bu, bir sevginin yox, sevgi ilə Vətənin necə bir-birinə toxunduğunun hekayəsidir. Əgər bir sevgi ruhda yaşayırsa, o sevgi də, o insan da heç vaxt ölmür.

Sevgi nədir? - deyə soruşsanız, cavab buradadır:

Azad bir sevginin, bir Vətənin, bir qadının ömürlük sədaqətinin adıdır.

Nuriyyə isə Azadsız bir həyatda sədaqətli yaşamağın nümunəsi…

Təhminə VERDİYEVA,
"Azərbaycan"

Kənd təsərrüfatının inkişafına dair yeni dövlət proqramı həyata keçirilir

Pambıq hər zaman qiymətli sərvət sayılıb

Bərdə regionu üzrə pambıqçılığın inkişafında yeni hədəflər - 8 min hektar əkin sahəsi, 45 sentner məhsuldarlıq

Kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair yeni dövlət proqramının qəbulundan təxminən 6 ay keçir. Dövlət proqramında qarşıya qoyulan vəzifələrin icrası ilə bağlı atılan ilk uğurlu addımlar məmmunluq doğurur, aqrar sektorun dinamik inkişafını təmin edir, yeni nailiyyətlərdən soraq verir.



Azərbaycanın kənd təsərrüfatında mühüm yer tutan pambıq qiymətli sərvətdir. Pambıqçılıq həm iqtisadi, həm də sosial baxımdan strateji əhəmiyyətə malik sahələrdən biridir. Bu sahənin inkişafı kənd yerlərində məşğulluğun artırılmasına, fermer təsərrüfatlarının gəlirlərinin yüksəldilməsinə, emal sənayesinin xammalla təmin olunmasına və ölkənin ixrac potensialının gücləndirilməsinə xidmət edir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən aqrar siyasətdə torpaq ehtiyatlarından səmərəli istifadə, məhsuldarlığın artırılması, müasir texnologiyaların tətbiqi və kənd təsərrüfatı istehsalının rəqabət qabiliyyətinin yüksəldilməsi mühüm yer tutur. Bu istiqamətdə fəaliyyətini davam etdirən Prime Cotton MMC-nin Bərdə regionunda da 2026-cı il pambıqçılıq mövsümü əhəmiyyətli istehsal göstəriciləri ilə müşayiət olunur. Cari mövsümün nəticələri, fermerlərlə əməkdaşlıq, istehsalın təşkili, pambığın emalı və növbəti il üçün qarşıya qoyulan hədəflər barədə MMC-nin regional idarəetmə rəhbəri Amil Rəşidovun fikirlərini öyrəndik. Bildirdi ki, ümumilikdə 2026-cı ili Bərdə regionu üçün məhsuldar və eyni zamanda mühüm təcrübələrin əldə olunduğu bir mövsüm hesab etmək mümkündür: "Təbii ki, hər bir istehsal mövsümünün həm müsbət nəticələri, həm də təhlil edilməli məqamları olur. Bizim üçün əsas məsələ yalnız ilin sonunda nə qədər pambıq istehsal etdiyimizi müəyyənləşdirmək deyil. Həmin məhsulun hansı şəraitdə yetişdirildiyini, hər hektardan nə qədər məhsul əldə olunduğunu, istehsal prosesində hansı çətinliklərin yarandığını və növbəti mövsümdə nələri daha yaxşı təşkil edə biləcəyimizi də qiymətləndiririk".

Cari ildə region üzrə 6420,37 hektarda pambıq əkini aparıldığını deyən həmsöhbətimiz bildirdi ki, bu prosesdə 1065 fermerlə əməkdaşlıq ediblər: "Noyabrın 23-nə olan məlumata əsasən, 4591,01 hektar sahədə məhsul yığımı aparılıb. Bu, ümumi əkin sahəsinin 71,51 faizidir. Həmin dövrə qədər 18942 ton kondisiyalı pambıq məhsulu əldə olunub. Region üzrə orta məhsuldarlıq 41,26 sentnerdir. Bu bizim üçün mühüm göstəricidir. Lakin hesab edirəm ki, mövcud potensial bundan daha yüksək nəticələr əldə etməyə imkan verir. Ona görə də 2026-cı ilin nəticələrinə yalnız uğur kimi deyil, həm də növbəti mövsüm üçün inkişaf imkanlarını müəyyənləşdirən əsas kimi yanaşırıq".

Regionun Bərdə, Tərtər, Ağdam, Yevlax və Goranboy rayonlarını əhatə etdiyini deyən A.Rəşidov əlavə etdi ki, rayonların torpaq xüsusiyyətləri, suvarma imkanları, təsərrüfatların ölçüləri və əkinçilik təcrübələri müəyyən qədər fərqlənir: "Cari mövsümün göstəricilərinə nəzər saldıqda görürük ki, Ağdam rayonu 44,65 sentner orta məhsuldarlıqla regionda ən yüksək nəticəyə malikdir. Tərtərdə bu göstərici 43,80, Yevlaxda 43,18, Goranboyda 42,79, Bərdədə 38,19 sentnerdir. Bu fərqlər bizim üçün xüsusi əhəmiyyət daşıyır. Çünki hər bir rayonun nəticəsi ayrıca təhlil olunmalıdır. Məsələn, Ağdam və Tərtərdə əldə olunan yüksək məhsuldarlıq göstəricilərinin arxasında dayanan amilləri müəyyənləşdirmək, uğurlu təcrübələri digər rayonlarda tətbiq etmək vacibdir. Eyni zamanda Bərdədə orta məhsuldarlığın digər rayonlarla müqayisədə aşağı olması diqqətimizdən qaçmır. Burada torpaq sahələrinin seçimi, suvarma imkanları, aqrotexniki tədbirlərin icra müddətləri və digər istehsal amilləri kompleks qiymətləndirilməlidir. İdarəetmədə əsas məsələ yalnız yaxşı nəticələri təqdim etmək deyil, gözlənilən səviyyədə olmayan göstəricilərin səbəblərini də obyektiv araşdırmaqdır. Çünki düzgün qərar qəbul etmək üçün ilk növbədə mövcud vəziyyəti düzgün qiymətləndirmək lazımdır".

Pambıqçılığın inkişafında fermerlərlə əməkdaşlığın rolu böyük əhəmiyyət kəsb edir. Bu prosesdə əsas sima fermerdir. Fermerin marağı, onun təsərrüfatının iqtisadi səmərəliliyi və istehsal prosesində qarşılaşdığı çətinliklər nəzərə alınmadan bu sahənin davamlı inkişafından danışmaq mümkün deyil. Həmsöhbətimiz bu barədə də fikrini açıqladı: "Cari mövsümdə region üzrə 1065 fermerlə əməkdaşlıq etmişik. Bu, kifayət qədər geniş təsərrüfat şəbəkəsidir. Biz fermerlərlə münasibətlərə yalnız müqavilə bağlanması və məhsulun qəbul edilməsi kimi yanaşmırıq. Əməkdaşlıq torpaq sahəsinin seçilməsindən başlayır. Daha sonra səpin, vegetasiya, aqrotexniki xidmət, məhsul yığımı və təhvil-təslim mərhələləri gəlir. Bu mərhələlərin hər birində fermerin qarşılaşdığı çətinliklərə vaxtında münasibət göstərilməsi vacibdir. Fermerlə şirkət arasında münasibətlərin əsasında qarşılıqlı etimad dayanmalıdır. Fermer bilməlidir ki, onun problemi dinlənilir, müraciəti diqqətdən kənarda qalmır və istehsal prosesində ona tərəfdaş kimi yanaşılır. Eyni zamanda fermerin də aqrotexniki tövsiyələrə əməl etməsi, əkin sahəsinə düzgün qulluq göstərməsi və məhsulun keyfiyyətinə diqqət yetirməsi mühüm əhəmiyyət daşıyır. Bizim əsas məqsədlərimizdən biri fermerlərin pambıqçılığa marağını artırmaq və onların bu sahədə fəaliyyətini iqtisadi baxımdan daha səmərəli etməkdir. Çünki fermerin qazancı artdıqca onun növbəti mövsümdə pambıq əkininə marağı da güclənir".

Müasir pambıqçılıqda məhsuldarlığa təsir edən müxtəlif amillər mövcuddur. Məhsuldarlıq bir neçə amilin qarşılıqlı təsiri nəticəsində formalaşır. İlk növbədə torpaq sahəsinin düzgün seçilməsi vacibdir. Bundan sonra suvarma imkanları, səpin müddəti, aqrotexniki tədbirlərin vaxtında aparılması, bitkilərin inkişafına nəzarət və məhsul yığımının düzgün təşkili gəlir. Həmin proseslərin hər hansı birində yol verilən gecikmə və ya nöqsan yekun nəticəyə təsir göstərə bilər.

Digər mühüm məsələ mexanikləşdirmədir. Müasir pambıqçılıqda texnikadan düzgün istifadə həm əməliyyatların vaxtında aparılmasına, həm də istehsal xərclərinin idarə olunmasına kömək edir. A.Rəşidov deyir ki, onlar hər bir istehsal mərhələsinə ayrıca deyil, bütöv bir sistemin tərkib hissəsi kimi yanaşırlar. Çünki yüksək məhsuldarlıq təsadüf nəticəsində deyil, düzgün planlaşdırma və ardıcıl fəaliyyət nəticəsində əldə olunur.

Həmsöhbətimizin sözlərinə görə, pambıqçılığın iqtisadi əhəmiyyəti yalnız xam məhsulun yetişdirilməsi ilə məhdudlaşmır: "Pambığın emalı nəticəsində əldə olunan məhsullar tekstil və digər sənaye sahələri üçün mühüm xammaldır. Noyabrın 23-nə olan məlumatlara əsasən, Bərdə regionu üzrə ümumilikdə 5587,626 ton xam pambıq emal olunub. 2441,3 ton mahlıc və 2882,2 ton çiyid əldə edilib. Bərdə emal müəssisəsində 3462,185 ton xam pambıq emal edilərək 1503,3 ton mahlıc və 1787,1 ton çiyid istehsal olunub. Tərtərdə 767,7 ton xam pambıqdan 333,4 ton mahlıc və 405,85 ton çiyid, Ağdamda 479,440 ton xam pambıqdan 216 ton mahlıc və 243,2 ton çiyid əldə edilib. Yevlax müəssisəsində isə 878,3 ton xam pambıq emal olunaraq 388,6 ton mahlıc və 446 ton çiyid istehsal edilib". Bu rəqəmlər emal müəssisələrimizin istehsal fəaliyyətinin miqyasını göstərir. Pambıq çoxşaxəli istifadə imkanlarına malik kənd təsərrüfatı məhsuludur. Emal nəticəsində əldə olunan mahlıc tekstil sənayesinin əsas xammallarından biridir. Çiyid isə yağ istehsalı və digər sənaye istiqamətlərində istifadə olunur. Bu baxımdan pambıqçılıq təkcə kənd təsərrüfatı sahəsi deyil, həm də emal və sənaye istehsalı ilə sıx əlaqəli iqtisadi fəaliyyət istiqamətidir. Bizim üçün əsas məqsəd xammalın qəbulundan başlayaraq, son məhsulun hazırlanmasına qədər bütün mərhələlərdə səmərəliliyi artırmaqdır. Məhsulun keyfiyyətli emal olunması, düzgün saxlanması və istehsal prosesində itkilərin azaldılması həm müəssisənin iqtisadi göstəricilərinə, həm də ümumi istehsal zəncirinin dayanıqlılığına təsir göstərir".

Pambıqçılığın mühüm üstünlüklərindən biri onun geniş məşğulluq imkanları yaratmasıdır. Bu sahədə yalnız fermerlər deyil, aqronomlar, mexanizatorlar, mühəndis-texniki heyət, emal müəssisələrinin əməkdaşları və digər peşə sahibləri fəaliyyət göstərirlər. Yeri gəlmişkən, qeyd edək ki, cari ilin oktyabr ayı üzrə əməkhaqqı hesabatına əsasən, Bərdə regionunda ümumilikdə 591 əməkdaş qeydə alınıb. Onlardan 368 nəfəri daimi, 223 nəfəri isə mövsümi əməkdaşdır. Sözsüz ki, bu göstəricilər pambıqçılığın kənd yerlərində məşğulluğun təmin olunmasına verdiyi dəstəyi əks etdirir. Amma A.Rəşidov deyir ki, məşğulluq yalnız iş yerlərinin sayı ilə qiymətləndirilməməlidir: "Əməkdaşların peşə hazırlığı, təhlükəsiz iş şəraiti, əmək intizamı və istehsalat mədəniyyəti də eyni dərəcədə əhəmiyyətlidir. Müasir istehsal müəssisəsinin uğuru yalnız texnika və avadanlıqdan deyil, həmin texnikanı idarə edən insanların bilik və məsuliyyətindən də asılıdır".

2027-ci il üçün qarşılarına daha böyük və konkret hədəflər qoyduqlarını bildirən həmsöhbətimiz vurğuladı ki, ilk növbədə region üzrə pambıq əkini üçün nəzərdə tutulan sahələrin həcmini 7500-8000 hektara çatdırmağı planlaşdırırlar: "Lakin bizim üçün əsas məqsəd yalnız əkin sahələrinin genişləndirilməsi deyil. Ən mühüm strateji hədəfimiz region üzrə orta məhsuldarlığı 45 sentnerə çatdırmaq və bu göstəriciyə ilk nail olan region olmaq üçün çalışmaqdır".

Prezident İlham Əliyevin kənd təsərrüfatında məhsuldarlığın artırılması, torpaq ehtiyatlarından səmərəli istifadə olunması və aqrar istehsalın inkişafı ilə bağlı müəyyən etdiyi istiqamətlər MMC-nin Bərdə regionu üçün əsas fəaliyyət meyarlarıdır. Bu səbəbdən 2027-ci il üçün əkin sahələrinin seçilməsi prosesinə xüsusi diqqət yetirilir. Torpaqların keyfiyyəti, suvarma imkanları, sahələrin yerləşməsi, mexanikləşdirilmiş əməliyyatlar üçün əlverişliliyi və məhsuldarlıq potensialı əsas seçim meyarlarıdır. Regional idarəetmə müəssisəsi sadəcə əkin sahələrinin həcmini artırmaq naminə məhsuldarlıq potensialı aşağı olan torpaqları əkinə cəlb etməyi düzgün yanaşma hesab etmir. Əsas məqsəd daha əlverişli sahələri seçmək, həmin sahələrdə aqrotexniki tədbirləri vaxtında həyata keçirmək və hər hektardan mümkün qədər yüksək məhsul əldə etməkdir. A.Rəşidov deyir ki, 45 sentner məhsuldarlıq kifayət qədər iddialı hədəfdir: "Bu nəticəyə nail olmağın mümkünlüyünü səmərəli fəaliyyətimizlə gerçəkləşdirmək əzmindəyik. Hədəfə nail olmaq ciddi hazırlıq, düzgün planlaşdırma və peşəkar idarəetmə tələb edir. Cari mövsümün nəticələri göstərir ki, regionumuzda belə yüksək göstəricilər əldə etmək mümkündür. Məsələn, Ağdam rayonunda orta məhsuldarlıq 44,65, Tərtərdə isə 43,80 sentnerdir. Bu göstəricilər bizim üçün mühüm təcrübədir. Əsas məsələ ayrı-ayrı rayonlarda əldə olunan yüksək nəticələri bütün region üzrə davamlı göstəriciyə çevirməkdir".

Pambıqçılıq böyük zəhmət, səbir, məsuliyyət və peşəkarlıq tələb edən sahədir. Bu sahədə əldə olunan hər bir nəticənin arxasında fermerlərin, aqronomların, mexanizatorların, emal müəssisələrinin əməkdaşlarının və digər mütəxəssislərin əməyi dayanır. "Hesab edirəm ki, əldə edilən nəticələrlə kifayətlənmək olmaz. Hər bir mövsüm növbəti il üçün yeni təcrübə və inkişaf imkanları yaradır. Biz 2027-ci ildə daha geniş əkin sahələri, daha yüksək məhsuldarlıq və daha səmərəli istehsal sistemi formalaşdırmaq niyyətindəyik. Əsas məqsədimiz Bərdə regionunu yalnız pambıq istehsalının həcminə görə deyil, məhsuldarlıq, keyfiyyət və idarəetmə səmərəliliyi baxımından da nümunəvi bölgələrdən birinə çevirməkdir. İnanıram ki, düzgün planlaşdırma, fermerlərlə qarşılıqlı etimad, peşəkar yanaşma və kollektiv əmək sayəsində 45 sentner məhsuldarlıq hədəfinə nail olmaq mümkündür. Çünki pambıqçılığın inkişafı yalnız bir müəssisənin uğuru deyil. Bu, fermerlərin rifahının yaxşılaşmasına, kənd yerlərində məşğulluğun artırılmasına, emal sənayesinin inkişafına və bütövlükdə ölkəmizin iqtisadi potensialının güclənməsinə xidmət edir", - deyə Amil Rəşidov fikirlərini tamamladı.

Lazım QULİYEV,
"Azərbaycan"

● Reportaj

Bu gün səpilən toxum sabah çörəkdir

Cəlilabadda taxıl səpini sürətlənir



Cəlilabad şəhərindən çıxıb üzü qərbə doğru - Yardımlı rayonuna tərəf istiqamətlənən şose ilə irəlilədikcə yolun hər iki tərəfində çılpaq dağlar və bu dağların arasında çox da böyük olmayan kəndlər görünür. Asfalt yolun kənarı ilə uzanan yerüstü dəmir borular diqqətimizi çəkir.

Yol yoldaşım - Kürdlər kənd bələdiyyə sədrinin müavini Anar Bağırovdan soruşuram:

- Bu kəndlərə qaz xətti çəkilib?

- Bəli, çoxdandır, təxminən, 15 il olar çəkilib.

- Bəs bu asfalt nə vaxt döşənib?

- Yol da elə həmin vaxtlarda, deyəsən, regionların sosial-iqtisadi inkişafı II Dövlət Proqramı çərçivəsində təmir olunub.

Çox da uzaq olmayan meşəsiz - çılpaq dağların sinəsi hansısa rəssamın çəkdiyi lövhəyə bənzəyir - bir hissəsi yamyaşıl, digər hissəsi isə tünd-şabalıdı rəngdədir. Cəlilabad Dövlət Aqrar İnkişaf



Mərkəzinin (DAİM) direktoru Rahib Kərimovun idarədə söhbət zamanı dediyi sözlər yadıma düşür. "Taxıl əkini müəyyən qədər ləngiyir. Bu da aramsız yağan yağışlarla əlaqədardır. Fermerlər, sahibkarlar hava şəraiti əl verən kimi sahələrə çıxıb əkin aparırlar".

Bu söhbətdən nəticə çıxarmaq o qədər də çətin deyil. Deməli, dağların yamacındakı çəmənləşən sahələr bir müddət bundan əvvəl əkilənlərdir. Yağan yağışlar torpağa düşən toxumu cücərtmiş, 15-20 gün ərzində ərazini çəmənlik halına gətirmişdir. DAİM-in direktoru onu da demişdi ki, cəlilabadlılar taxıl əkib-becərməyin nə olduğunu yaxşı bilirlər: "Rayonumuz bu sahədə öz sözünü həmişə demişdir. Hər hektardan yüksək məhsul əldə etdiyinə görə Cəlilabadı Azərbaycanın Ukraynası adlandırıblar. Keçən əsrin 70-80-ci illərində taxılçılıq sahəsində qazandığı nailiyyətlərə görə bir neçə nəfər o dövrün ən yüksək mükafatlarından olan Sosialist Əməyi Qəhrəmanı adına layiq görülüb". Direktor sözünə davam edərək onu da bildirmişdi ki, fermerlər, torpaq mülkiyyətçiləri ənənəni indi də davam etdirirlər. "Onlar dövlətin göstərdiyi diqqət və qayğıdan lazımınca bəhrələnirlər. Taxıl və digər bitkilərin istehsalı ilə bağlı fermerlərə subsidiyalar verilir - buğda və arpa üçün hər hektara 200 manat. Gübrə və texnika sarıdan heç bir çətinlik yoxdur. Bildiyiniz kimi, 2026-2030-cu illəri əhatə edən yeni dövlət proqramında kənd təsərrüfatı işçilərinin qarşısında çox mühüm vəzifə qoyulub: hər hektardan məhsuldarlığı 50 sentnerə çatdırmaq. Bunun üçün indidən, yəni əkin vaxtından tədbir görmək lazım gəlir. Yüksək məhsul isə keyfiyyətli toxum, aqrotexniki tədbirləri vaxtında və keyfiyyətlə həyata keçirmək nəticəsində əldə olunur. Ona görə də taxılçılara məsləhət görmüşük ki, sertifikatlı toxumlar alıb əksinlər. Respublikamızın ayrı-ayrı rayonlarından keyfiyyətli toxumlar alırıq. Bu barədə onlarla seminar-müşavirələr də keçirmişik. Sertifikatlı toxum əkməyənlərə dövlət tərəfindən 200 manat yox, 100 manat həcmində subsidiya veriləcək".

Direktorun söhbətindən o da məlum olmuşdu ki, cari ili taxılçılar üçün uğurlu hesab etmək olar. Keçən ilin payızında 67 min hektar sahənin 50 min 694 hektarına buğda, 16 min 307 hektarına arpa əkilmişdir. Buğda sahələrindən məhsuldarlıq 44,1 sentner olmaqla ümumilikdə 23 min 561 ton, arpa sahələrindən məhsuldarlıq 35 sentner olmaqla 57 min 75 ton məhsul istehsal olundu. Bundan əlavə, heyvandarlıqda istifadə etmək üçün vələmir əkilmiş 4 min 990 hektardan 13 min 573 ton məhsul hasil edildi.

Bu ilin payızında isə cəlilabadlı fermer və sahibkarlar 65 min hektarda səpin aparmağı nəzərdə tutublar. Bunun 49 min hektarı buğda, 16 min hektarı arpa olacaq. 5 min hektarda da vələmir əkiləcək. İndiyədək 20 min hektardan çox sahədə buğda, 14 min 500 hektardan artıq sahədə arpa səpini aparılıb. 1700 hektara isə vələmir əkilib. Səpinə 120 yerşumlayan traktor, 76 kotan və 85 toxumsəpən aqreqat cəlb olunub.

Bizi bu rəqəmlərdən yol yoldaşımız Anar Bağırovun sözləri ayırdı:

- Buralar bizim ərazidir, daha dəqiq desək, Kürdlər bələdiyyəsinə daxil olan Abdullu kəndidir. Abdullu bələdiyyəbəki 15 kənddən biridir. Kənddə 133 təsərrüfat var. Əhalisi isə 660 nəfərdir. Sakinlər əsasən əkinçilik və heyvandarlıqla məşğuldur.

Asfalt yolun kənarındakı şum edilmiş sahəyə yaxınlaşırıq. Uzaqdan sahədə işləyən traktor və ona qoşulmuş toxumsəpən aqreqat görünür. Sahənin o biri başından gələn traktor bizə çatanda dayanır. Anar Bağırov bizi traktorçu ilə tanış edir.

- Bəs fermer haradadır? - deyə soruşuruq.

Yeni tanışımız:

- Fermer də mənəm, traktorçu da, - deyir.

Söhbət zamanı məlum olur ki, Abdullu kənd sakini Pərvin Haqverdiyevin şəxsi traktoru, kotanı, malası, toxumsəpən aqreqatı var. Əkini öz texnikaları ilə aparır. Əlavə olaraq həmkəndliləri və digər yaxın kəndlərdəki fermerlərin də işinə yarayır, halal zəhməti ilə ailəsini dolandırır. Dediyinə görə, 12 yaşından texnika ilə maraqlanıb, zaman keçdikcə bu sahədə təcrübəsini təkmilləşdirib. Təmir zamanı da ora-bura düşüb usta axtarmır, nə lazımdırsa, özü edir. Keçən il o, hər hektardan 40 sentner məhsul götürüb. İndi isə əkdiyi sahənin 13 hektarında səpini başa çatdırıb.

Bələdiyyə sədrinin müavini:

- Buradan bir az aralıda da əkin gedir, istəyirsinizsə, ora da gedək, - deyir.

- Razılıq veririk və ora yollanırıq. Kənardan arxasında səpin aqreqatı olan traktorun təpənin o biri başından gəldiyini görürük. Bəli, buralar dağ-təpədir. Bu yerlərdə əkin-biçin aparmaq asan iş deyil. Yenə traktorun gəlməsini gözləyirik. İçərisi toxumla dolu olan lafetə yaxınlaşıb əkilən buğdanın hansı növdən olduğu ilə maraqlanırıq. Yol yoldaşım:

- Bunu yalnız yüksəkixtisaslı mütəxəssis təyin edə bilər, mən bunu dəqiq bilmərəm, - deyir.

İki-üç dəqiqə keçmir ki, traktor dayandığımız yerə gəlib yetişir. Fermerlə tanış oluruq. Abdullu kənd sakini Elmar Əliyev "Bərəkətli-95" buğda sortunu əkdiyini deyir. O da öz sahəsini öz texnikası ilə əkir. Nikbin adam olduğunu müəyyən etmək çətin deyildi. Yağışların çox yağması, əkinin bir balaca yubanması onu qorxutmur. İqlimin dəyişdiyinə işarə edir:

- Hər şey Tanrının əlindədir. Yaz da yağmurlu keçsə, indi əkilən toxum vaxtında istənilən məhsulu verəcək.

Bəli, bu gün Cəlilabadda hara üz tutsan, sahələrdə qızğın iş getdiyini görürsən. Hər kəs yaxşı bilir ki, bu gün əkilən toxum sabahın bol çörəyidir.

Seyran CAVADOV,
"Azərbaycan"

Mənəviyyat mövzusunda

Həm etiket, həm də dəyər

Hər bir insanın davranışında müəyyən hərəkətlər var ki, biz onlara etiket qaydaları deyirik. Bu söz birləşməsi nəzakət qaydaları mənasında işlədilir. Əslində isə az qala hər etiket qaydası insanın mənəviyyatından qaynaqlanan bir hərəkətdir.



Hələ uşaqlıqdan eşitmişik ki, zərif cinsin nümayəndələrinə birinci yol vermək, yer göstərmək kişilərin alicənablığı və mənəvi borcudur. Lakin bundan istisnalar da az deyil. Məsələn, teatr, yaxud konsert salonunda kişi əlində bilet irəlidə getməli və orada göstərilən cərgəni taparaq onun ardınca addımlayan xanımına əyləşəcəyi yeri göstərməlidir.

Bəzən yanlış düşünürük ki, bu qaydalar bizə Avropadan, yaxud hansısa bir məmləkətdən keçib. Ancaq gəlin görək hansı Azərbaycan oğlu qaranlıq bir küçədən, dalandan keçəndə, yaxud nabələd olduğu bir məkanda anasını, bacısını, həyat yoldaşını qabağa buraxar? Bu, qadınla kişinin izdiham arasından keçərkən də mümkün olan hərəkət deyil. Belə hallarda nə qadın qabağa yeriyər, nə də yanındakı əri, oğlu, qardaşı onun əvvəlcə irəliyə addımlamasına imkan və icazə verər. Dağlarda, meşələrdə istər ailəvi istirahət vaxtı olsun, istərsə də qrup halında turizm səyahəti zamanı - bu nəciblik özünü hər yerdə göstərir. Yerüstü ictimai nəqliyyatda dəfələrlə ədəb-ərkanlı cütlüklərin avtobusa minib-düşməklərini müşahidə etmişik. Avtobusa qalxarkən kişi qadını irəli buraxır, düşərkən isə özü əvvəlcə düşüb xanımına enməyə kömək edir.

Budur bizim mentalitetimiz, milli-mənəvi dəyərimiz - mənəviyyatımızdan qaynaqlanan addımlar.

Böyük içəriyə daxil olanda ayağa qalxmaq cavanlarımızın mənəviyyatından irəli gəlmirmi?

Rastlaşarkən qadına birinci əl uzatmamaq, əgər qız, yaxud xanım əl uzatmırsa, bundan, ümumiyyətlə, vaz keçmək, sadəcə sözlə, yaxud kiçik bir jestlə salamlaşmaq kişilərimizin saf mənəviyyatından xəbər vermirmi?


Evimizə qonaq gələrkən birinci xoş reaksiyanı özümüzün göstərməyimiz də nəzakət qaydasından daha çox xalqımızın adət-ənənəsindən, qonaqsevərliyindən, yüksək mənəviyyatından irəli gəlir.

Müdirin birinci əl uzadaraq öz işçisi ilə salamlaşması bəlkə başqa bir ölkədə yalnız etiket qaydaları çərçivəsində olan hərəkətdir. Bizdə isə bu, təkcə etiket deyil, yüksək mənəviyyatdan irəli gələn təvazökarlıq, alicənablıqdır. Çünki vəzifəli şəxsin yanına hansı bir xahişlə gələn insanın, xüsusilə ixtiyar yaşlı insanın ayaqüstə qalmaması, probleminin həll olunub-olunmamasına baxmayaraq, ona ilk növbədə oturmağın təklif olunması da azərbaycanlı mədəniyyətinin və mənəviyyatının əlamətidir…

Və nə xoş ki, bu və digər dəyərlərimiz yaşayır, nəsildən-nəslə ötürülür. Bunları bilməyənlər az olsa da, ətrafında onlara örnək, nümunə olanların çoxluğu ürəkaçandır. Həm də o səbəbdən ki, yaxşı nümunədən bəhrələnmək də bizim insanların mənəvi, əxlaqi dəyərləri sırasındadır.

Flora SADIQLI,
"Azərbaycan"

Leyla Əliyevanın təşəbbüsü ilə yaşıllıqların mühafizəsinə dəstək olan "agac.az" mobil tətbiqi istifadəyə verilib



Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən yaşıllıqların inventarlaşdırılması layihəsi çərçivəsində "agac.az" mobil tətbiqi istifadəyə verilib.

Bu barədə AZƏRTAC-a Ekologiya və Təbii Sərvətlər Nazirliyindən məlumat verilib.

Bildirilib ki, IDEA İctimai Birliyi ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən 2022-ci ildən birgə həyata keçirilən layihə çərçivəsində hazırlanmış mobil tətbiq vətəndaşlara ağaclar haqqında məlumat əldə etmək və onların mühafizəsində birbaşa iştirak etmək imkanı verir.

Layihə çərçivəsində ölkə üzrə 212 mindən çox ağacın hər birinə fərdi QR kodlu nişan vurulub. Nişanlama zamanı ağacların yeri, növü, ölçüləri və mövcud vəziyyəti barədə məlumatlar elektron sistemə daxil edilib.

İstifadəçilər ağacların yerini interaktiv xəritədə görə və QR kodu oxudaraq müvafiq ağacın rəqəmsal məlumat kartına baxa bilərlər.

Ağacın quruduğunu, zədələndiyini və ya qulluğa ehtiyacı olduğunu müşahidə edən vətəndaşlar tətbiq vasitəsilə foto əlavə edərək nazirliyə məlumat göndərə bilərlər. Bu imkan qulluq tələb edən ağacların vaxtında müəyyənləşdirilməsinə, yaşıllıqların mühafizəsi üzrə görülən işlərin şəffaflığının artırılmasına və bu sahədə ictimai nəzarətin gücləndirilməsinə şərait yaradır.

Qeyd edək ki, rəqəmsal uçotun interaktiv xəritə və ictimai iştirak imkanları ilə birləşdirilməsi şəhər yaşıllıqlarının idarə olunması üzrə qabaqcıl beynəlxalq təcrübəyə uyğundur. Sistemdə toplanan məlumatlar gələcəkdə süni intellektdən istifadə etməklə ağacların vəziyyətindəki dəyişiklikləri təhlil etmək, riskləri erkən müəyyənləşdirmək və qulluq tədbirlərini planlaşdırmaq üçün əsas yaradır.

"agac.az" mobil tətbiqi hazırda iPhone istifadəçiləri üçün App Store-da əlçatandır.

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi

tabeliyində Sosial Xidmətlər Agentliyi "Xüsusi qayğıya ehtiyacı olan ailələrin uşaqları üçün "Yeni il" şənliyinin təşkili (respublikanın şəhər və rayonları üzrə)" adlı

müsabiqə keçirir

Müsabiqədə qeyri-hökumət təşkilatları istisna olmaqla, bələdiyyələr, fiziki və hüquqi şəxslər iştirak edə bilərlər. İştirak haqqı yoxdur. Maraqlanan bələdiyyələr, fiziki və hüquqi şəxslər müsabiqənin əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinə (Ünvan: Nərimanov rayonu, Ziya Bünyadov prospekti, 1965, "Çinar Park" biznes mərkəzi, bina 1) yazılı müraciət edə bilərlər.

Müsabiqədə iştirak edən bələdiyyələr, fiziki və hüquqi şəxslərin təklifləri 11 dekabr 2026-cı il saat 17:00-dan gec olmayaraq agentliyə təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır. Müsabiqə 14 dekabr 2026-cı il saat 11:00-da agentliyin inzibati binasında keçiriləcəkdir.

Əlaqə telefonu: (012) 525-41-30 (daxili-5032)

Müsabiqə komissiyası

İpəyə toxunmuş milli yaddaş





Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində (ADMİU) Kəlağayı Günü münasibətilə "Kəlağayı bayramı" adlı konsert təşkil olunub.

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən ADMİU-nun rektoru, professor Ceyran Mahmudova kəlağayı sənətinin qədim tarixindən bəhs edib.

"Kəlağayı sənətinin müasir dövrdə yaşadılması və gələcək nəsillərə ötürülməsi təqdirəlayiqdir. Kəlağayı yalnız dekorativ sənət nümunəsi deyil, həm də xalqımızın zəngin mədəni irsini, milli kimliyini və tarixi ənənələrini özündə əks etdirən mühüm dəyərdir. Bu sənətin qorunması, təbliği və yeni yaradıcılıq nümunələri ilə zənginləşdirilməsi xüsusi əhəmiyyət daşıyır. Sevindirici haldır ki, bu gün gənc nəsil arasında da kəlağayıya maraq artır. İnanırıq ki, ənənəvi sənət nümunələrimiz gələcək nəsillər tərəfindən də qorunacaq və yaşadılacaq", - deyə rektor əlavə edib. "Kəlağayı ev-muzeyi"nin yaradıcısı, "Mirvarid Dilbazi Poeziya Məclisi" İctimai Birliyinin sədri Güllü Eldar Tomarlı Kəlağayı Gününün təsis olunması barədə məlumat verərək deyib: "UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Hökumətlərarası Komitəsinin 2014-cü il noyabrın 26-da keçirilən iclasında Azərbaycan kəlağayı sənəti "Kəlağayı simvolizmi və ənənəvi sənəti" adı ilə UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilib. Azərbaycan kəlağayı sənətinin UNESCO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilməsi bu sənətin beynəlxalq səviyyədə tanınmasının mühüm göstəricisidir. Bu hadisə xalqımızın əsrlər boyu qoruyub saxladığı sənət ənənələrinin bəşəriyyətin ortaq mədəni irsinin bir hissəsi kimi əhəmiyyətini nümayiş etdirir".





Şairə Səadət Buta kəlağayının milli kimliyimizin və mədəni irsimizin mühüm rəmzlərindən biri olduğunu vurğulayıb.

Tədbir konsert proqramı ilə davam edib.

Fransa radikal ideologiyaların qarşısını almaqda acizdir



Fransada son vaxtlar "ağlara qarşı irqçilik" fikri tez-tez səsləndirilir. Əslində isə bu iddialar qaradərili və Şimali Afrika mənşəli insanların üzləşdiyi real, sistemli ayrı-seçkiliyi arxa plana keçirmək məqsədi daşıyır. İfrat sağçı dairələr cinayət, miqrasiya və islam mövzularını önə çəkməklə ictimai müzakirələrin yönünü dəyişirlər.

Onlar bu yolla gündəlik həyatda çətinliklərlə üzləşən insanların problemlərini kiçiltməyə çalışırlar. Hüquq müdafiəçiləri də məsələdən narahatdırlar. Onların fikrincə, bu, cəmiyyətdə əcnəbilərə qarşı nifrəti adi hala çevirir. Dövlət qurumlarının və siyasətçilərin buna reaksiya verməməsi isə radikal qrupları daha da cəsarətləndirir.

Fransanın araşdırmaçı media nəşri "Mediapart"ın həmtəsisçisi və keçmiş baş redaktoru Edvi Plenel mövzu ilə bağlı araşdırmasında bildirib ki, təhqir və ya pis davranış kimə yönəlməsindən asılı olmayaraq, qəbuledilməzdir. Lakin Fransada qaradərili və Şimali Afrika mənşəli vətəndaşların işə qəbulda, mənzil kirayəsində, polis yoxlamalarında və ictimai həyatda qarşılaşdıqları sistemli maneələrlə ağdərili vətəndaşlar üzləşmirlər.

Qeyd edək ki, Fransa qanunvericiliyi irqi və etnik mənsubiyyət üzrə rəsmi statistikanın aparılmasını qadağan edir. Bu səbəbdən mövcud problemlər daha çox müstəqil sosioloji araşdırmalar və hüquq müdafiəçilərinin hesabatları ilə üzə çıxır. Məsələn, müstəqil tədqiqatlar və Fransa Hüquq Müdafiəçisi İnstitutunun hesabatları ciddi ayrı-seçkilik faktlarını ortaya qoyur. Məlum olur ki, ərəb və ya Afrika mənşəli ad-soyad daşıyan şəxslərin iş müsahibəsinə dəvət almaq şansı digərlərindən xeyli aşağıdır. Eyni çətinlik mənzil kirayələmək istəyənlərə də aiddir. Bundan başqa, gənc qaradərili və Şimali Afrika mənşəli kişilər polis yoxlamaları ilə daha tez-tez üzləşirlər. Hesabatlara əsasən, onların sənəd yoxlanışına məruz qalma ehtimalı digər vətəndaşlarla müqayisədə dəfələrlə yüksəkdir.

Qeyd olunur ki, bütün bu mübahisələrin kökündə Fransanın öz keçmişi ilə tam üzləşmək istəməməsi dayanır. Ölkə hələ də müstəmləkə tarixi və quldarlıq dövrü ilə bağlı məsuliyyəti tam qəbul etmir. Xüsusilə Əlcəzair müharibəsi və XIX-XX əsrlərdə Afrika qitəsində aparılan müstəmləkəçilik siyasəti bu gün də ciddi mübahisə mövzusudur. Keçmişdən qalan bu problemlər cəmiyyətdə dərin izlər buraxıb. Müstəmləkəçilik dövründə formalaşan ayrı-seçkilik düşüncəsi bu gün də özünü göstərir. Ekspertlərin fikrincə, cəmiyyətdə əsl bərabərlik və qarşılıqlı anlaşma mühiti yaratmaq üçün tarixi həqiqətlər açıq şəkildə etiraf olunmalıdır.

Təhminə VERDİYEVA,
"Azərbaycan"

ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Prezidentinin İşlər müdiri Ramin Quluzadəyə əzizi

RAİSƏ QULUZADƏNİN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Mərkəzi Bankının rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Prezidentinin İşlər müdiri Ramin Quluzadəyə əzizi

RAİSƏ QULUZADƏNİN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi İsa Nəcəfov Vəkillər Kollegiyasının üzvü Kəramət Əliyevə bacısı

NAZİLƏ FƏTƏLİ QIZI MƏMMƏDOVANIN

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərnəşrin baş redaktoru Əlövsət Ağalarov və nəşriyyatın kollektivi akademik Nizami Cəfərova və C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasının direktoru Aslan Cəfərova bacıları

AFAQ XANIMIN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Prezidentinin İşlər müdiri Ramin Quluzadəyə əzizi

RAİSƏ QULUZADƏNİN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

«AZƏRBAYCAN»
qəzetinin reklam xidməti
539-49-20

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

Qəbul otağı	- 539-68-71,	Beynəlxalq həyat, idman və informasiya şöbəsi	- 539-63-82, 432-37-68
Baş redaktor müavinləri	- 538-86-86, 538-35-55	Humanitar siyasət şöbəsi	- 538-56-60, 434-55-58
Məsul katib	- 539-43-23,	İctimai əlaqələr şöbəsi	- 539-49-20, 538-31-11,
Məsul katib müavinləri	- 539-44-91,	Kompüter mərkəzi	- 538-20-87,
Parlament və siyasət şöbəsi	- 539-84-41, 539-21-00,	Mühasibatlıq	- 539-59-33
İqtisadiyyat şöbəsi	- 538-42-32		

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə

az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3320
Sifariş 1544

Qiyməti 60 qəpik